www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 fevral 2017-ci il Çərşənbə axşamı № 27 (6641) Qiymәti 60 qəpik

**Xəbər**

## Şəhidimiz Çingiz Qurbanov böyük törənlə dəfn edildi

yazısı səh.3-də

**Gündəm**

### Prezident İlham Əliyev Brüsseldə mühüm görüşlər keçirdi



Dövlət başçısı: "Şadam ki, fevralın 7-də biz Azərbaycanla Aİ arasında yeni saziş üzrə danışıqlara başlayırıq"

yazısı səh.5-də

### Müxalifət YAP qərargahı önündə cavab aksiyası keçirəcəkmi...

yazısı səh.6-da

### Türkiyənin taleyini dəyişəcək çətin aprel seçimi

yazısı səh.7-də

### Azərbaycan vətəndaşları Vyetnama elektron viza ilə gedə biləcək

yazısı səh.8-də

### Vitse-prezidentlərin 4 ay uzanan təyinatı...

yazısı səh.6-da

### Ermənistan prezidentinin "güzəştlərə hazırıq" bəyanatı - nağıl, yoxsa...

yazısı səh.11-də

### İslam Oyunlarında bahalı müğənnilər Bakıya dəvət olunmayacaq

yazısı səh.12-də

### Dolları kim ucuzlaşdırır - Tramp, yoxsa Mərkəzi Bank...

yazısı səh.10-da

### Hökumət növbəti bahalaşmaya gedəcəkmi...

yazısı səh.13-də

### "İntihar kabusu" ölkəmizin üzərindən çəkilmir

yazısı səh.15-də

### Böhran toylardakı israfçılığı aradan qaldıra biləcəkmi...

yazısı səh.15-də

### Bakıda qadın 6 nəfərə üst-üstə 387 min manat "atıb"

yazısı səh.14-də

## Rusiya postsovet məkanındakı "5-ci kolon"çulara səslənir

# KREMLİN "DANIŞAN DİLİ" QARABAĞ DÜSTURUNU AÇDI - ŞİMALDAN TƏHLÜKƏLİ NOTLAR

SSRİ-nin məxməri bərpası haqda müjdənin qorxunc pərdəarxası; "Azərbaycanın yerinə Bakı quberniyası" vəd edən Jirinovskinin mövqeyi Lavrovun Qarabağ yanaşmasından ciddi fərqlənmir, çünki...




yazısı səh.8-də

## Rusiya kəşfiyyatının Türkiyə macəraları

15 iyul gecəsi amerikalı generallar necə tələyə salındı

yazısı səh.4-də



*İlham İsmayıl:*

### "Ölkəmiz beynəlxalq terrorizmin hədəfində deyil, amma təhlükəsizlik qurumları hədələri ciddiyə almalıdır"

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

### "Sovetlər dağılsa da, Rusiya, faktiki, imperiya olaraq qalır və yenə dünyaya meydan oxuyur"

yazısı səh.7-də



### Aqil Abbas müzakirələrə səbəb olan fotosundan danışdı

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017



# Prezident İlham Əliyev İndoneziyaya səfər edəcək

**Azərbaycan Prezidenti İlham Əliyev İndoneziyaya rəsmi səfər edəcək. Bu barədə salamnews-a açıqlamasında İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan Bəy Fanani deyib.**

Onun sözlərinə görə, səfər bu ilin aprel ayında baş tutacaq: "Səfərin tarixi barədə danışıqlar aparılır, lazımi işlər görülür".

Səfir əlavə edib ki, Azərbaycan Prezidenti təkcə İndoneziyaya deyil, ətraf bir neçə ölkəyə də səfər edəcək.

# Belarus Ali Məhkəməsi bu gün Lapşinin işinə nöqtə qoyacaq

**Belarusun Ali Məhkəməsi Rusiya və İsrail vətəndaşlığını daşıyan qalmaqallı blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyasına dair baş prokurorluğun qərarından verilmiş şikayətə sabah fevralın 7-də baxacaq.**

Virtualaz.org xəbər verir ki, məhkəmə işə yerli vaxtla saat 10.00-da qapalı rejimdə baxacaq, ancaq hökmün elan edilməsi mətbuata açıq olacaq. Lapşinin vəkilləri ekstradisiya qərarından şikayət verib, Minsk Şəhər Məhkəməsi qərarı qüvvədə saxlayıb. Daha sonra vəkillər Ali Məhkəməyə müraciət edib.

Belarus prezidenti Aleksandr Lukaşenko ötən həftə bəyan edib ki, Lapşinin Azərbaycana təhvil verilməməsi üçün heç bir əsas yoxdur və mətbuat bu məsələni şişirtməməlidir. Blogger Qarabağa qanunsuz səfər etməkdə və Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq çağırışlarda ittiham olunur.



# Ağsu aşırımında yol çökdü, hərəkət istiqaməti dəyişdirildi

**Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Ağsu dolaylarından keçən hissəsinin 149-cu km-də torpaq sürüşməsi aktivləşib. Bu barədə "Azəravtoyol" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli məlumat verib. Sürüşmə sahəsi 40 metrədək ərazini əhatə edir. Sözügedən hissədə yol 40-50 sm çöküb.**

Sürüşmə qeydə alınan hissənin bərpası üçün əraziyə "Azəravtoyol" ASC-nin texnikası və canlı qüvvəsi cəlb olunub.

Avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə həmin hissədə hərəkət məhdudlaşdırılaraq, ərazidəki alternativ yola yönəldilib.

ASC həmin yolun fotosunu təqdim etməklə, sürücülərin yoldan istifadə etməklə maneəsiz şəkildə hərəkətlərini davam etdirə biləcəklərini qeyd edir.

❑ **M.MAHRIZLI**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Aİİ Bankının TANAP-a kredit ayırmasına dair müqavilə imzalandı

**Azərbaycan hökuməti, "Cənub Qaz Dəhlizi" (CQD) QSC və Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) layihəsinin dəstəklənməsi məqsədilə kredit ayrılmasına dair müqavilə imzalanıb.**

"Report" xəbər verir ki, 600 mln. ABŞ dolları məbləğində olan kredit sazişini CQD-nin baş direktoru Əfqan İsayev və AIIB-in İnvestisiya Əməliyyatları Departamentinin baş direktoru Teravaninton Supi (Teravaninthorn Supee), kredit müqaviləsinə dair zəmanət sazişini isə Azərbaycan hökuməti adından maliyyə naziri Samir Şərifov, AIIB-in adından Teravaninton Supi imzalayıblar.

Ə.İsayev bildirib ki, «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi üçün beynəlxalq maliyyə təşkilatları ilə sıx əməkdaşlıq nəticəsində əldə edilmiş uğurlar beynəlxalq müstəvidə Azərbaycan tərəfindən görülən işlərə inam və dəstəyi nümayiş etdirir. CQD-nin baş direktoru qeyd edib ki, hazırda bir sıra Avropa maliyyə institutu da danışıqların intensivləşməsi ilə maliyyələşdirmədə öz maraqlarını təsdiqləyib: "Prezident İlham Əliyev öz çıxışlarında daim vurğulayıb ki, layihə təkcə Azərbaycan üçün deyil, Avropa və regionun enerji təhlükəsizliyi üçün xüsusi önəm daşıyır və məhz Azərbaycanın liderliyi hesabına icra edilir. «Cənub Qaz Dəhlizi» layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi (ŞD-2), bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz Qaz Boru Kəməri (CQBK) və yeni tikiləcək TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir.




Layihədə iştirak edən bütün ölkələr üçün «Cənub Qaz Dəhlizi»nin vacibliyini nəzərə alaraq, bir sıra beynəlxalq maliyyə institutu bu layihəni dəstəkləyir".

CQD-nin baş direktoru «Cənub Qaz Dəhlizi» layihəsinin iqtisadi və kommersiya cəhətdən də çox səmərəli olduğunu qeyd edərək, bu istiqamətdə görülmüş işlər barədə də məlumat verib.

**Onun sözlərinə görə, QSC tərəfindən «Cənub Qaz Dəhlizi» layihəsi üzrə 2014-2019-cu illər üçün ümumi tələb olunan təqribən 11,9 mlrd. dollar məbləğində vəsaitdən indiyədək 6,3 mlrd. dollar hissəsi, yəni təqribən 50%-i icra edilib. O deyib ki, bu vəsaitin ötən ildə təqribən 2 mlrd. dolları xərclənib:** "Layihə çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə görüləcək işlərin (ilk qazın hasilatına dair) 87,9%-i, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) üzrə işlərin 74,5%-i, TANAP-ın inşası üzrə işlərin 59,3%-i, TAP-ın inşası üzrə işlərin 31,8%-i icra edilib. İnşaat işləri uğurla davam etdirilir".

# Çovdarovun məhkəməsində "Xatirə" qovğası

## İcra başçısının sabiq müavini və bələdiyyə sədri məhkəməyə gətirildi

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib.

Məhkəmə Kürdəmir epizodu üzrə davam edib. İttiham aktına görə Kürdəmirin Mollakənd kəndində Şehman İmanova məxsus "Xatirə" restoranı Akif Çovdarov və adamları tərəfindən zorla ələ keçirilib.

Ötən prosesdə Ş.İmanov ifadə vermişdi. O, restoranı Çovdarovun təzyiqlərindən sonra Sədiyar Tağıyevə satdığını, sonuncunun isə qorxduğu üçün ölkəni tərk etdiyini deyib.

Bildirək ki, restoran Çovdarovun oğlunun adına yaradılan RAF MMC-nin torpaq sahələrinin ərazisinə yaxın olub. Həmin torpaq sahələrində Çovdarovun oğlu balıqçılıqla məşğul olub. Restoran torpaq sahələrinə gedən yolun üzərində yerləşdiyi üçün Çovdarov oranı almaq istəyib. Ancaq tərəflər razılaşmayıblar.



Məhkəmə iclasında Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq əməkdaşı Əşrəf Rzayev ifadə verib.

O, sabiq icra başçısının müavini vəzifəsində çalışıb. Şahid Kürdəmirdə torpaq sahələrinin Çovdarova verilməsi haqda ifadə verib.

Ə.Rzayev bildirib ki, həmin dövrdə icra başçısı ondan bir nəfərə torpaq verilməsini istəyib. O da araşdırıb və həmin torpaq sahəsi boş olduğu üçün onu sənədləşdirib. Rzayev Çovdarovu, Çovdarov da Rzayevi tanımadığını məhkəmədə deyib.

Kürdəmir rayonunun keçmiş bələdiyyə sədri Mətləb Rzayev də şahid qismində ifadə verib.

O da A.Çovdarovu tanımadığını deyib. M.Rzayev ifadəsində deyib ki, ələ keçirilən torpaq sahəsi ona məxsus olub. Şahid deyib ki, sabiq icra başçısı və müavini ona hədə-qorxu gələrək torpaq sahəsindən imtina etməyi tələb ediblər: **"Biz də məcbur qalıb deyilənləri etdik".**

Daha sonra prosesdə A. Çovdarovun vəkilləri çıxış edib. Onlar Çovdarovun holter aparatından keçirilməsini istəyiblər. Qeyd ediblər ki, işemiya və ritm xəstəliklərini həmin aparat müəyyən edir.

Məhkəmə vəsatəti təmin etməyib. Hakim bildirib ki, bu məsələ onların səlahiyyətində deyil.

Daha sonra iclasda "Baktel" şirkətinin rəhbəri Zaur İbrahimov zərərçəkmiş qismində ifadə verib.

Deyib ki, Çovdarov ondan 525 min dollar alıb. A. Çovdarov isə onun dediklərini təkzib edib. Bununla belə, söyləyib ki, həmin şəxsi tanıyır və bir tanışının xahişi ilə onu qəbul edib: **"Ona borclu olanlar var idi. Həmin məsələ ilə bağlı görüşmüşdük. Bilirdim ki, bu adamlar problemli adamlardır. Dedim ki, get qanuni yolla ala bilirsənsə, pulunu al".**

**Məhkəmə proses fevralın 8-də davam edəcək.**



Elgiz Hacıyev

# Rusiyalı deputat da Sülh Platformasına qoşuldu

**Rusiya Federasiyası Udmurtiya Respublikasının Sarapul rayonu Deputatlar Şurası Prezidiumunun üzvü və Rusiya Federasiyası Kommunist Partiyası fraksiyasının rəhbəri Elgiz Hacıyev Ermənistan-Azərbaycan Sülh Platformasına qoşulmaqla bağlı bəyanat verib.**

Virtualaz.org Ermənistan-Azərbaycan Sülh Platformasının mətbuat xidmətinə istinadən bildirir ki, bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyi, həmçinin Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyü və suverenliyinə, habelə hər iki dövlətin beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət bəslənildiyi qeyd olunur: "BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələrin, habelə digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrasının vacibliyini dərk edərək, ATƏT Minsk Qrupunun münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətinin vacibliyini anlayaraq və bu fəaliyyəti dəstəkləyərək, erməni və Azərbaycan xalqlarının birgə yaşayışla əlaqədar ümumi ənənələrinə istinad edərək, münaqişənin həll olunmaması nəticəsində iki ölkədə yetişməkdə olan nəsillərin bir-biri haqqında təsəvvürləri yalnız müharibə kontekstində formalaşdığını təəssüflə qeyd edərək, xalqların sülh şəklində birgə yaşayışını və uzun müddət davam edən münaqişənin həllini dəstəkləyərək, təşkilat adından, mən, Elgiz Hacıyev, bununla bu təşəbbüsə öz dəstəyimi ifadə edirəm və əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə vermək olan Ermənistan-Azərbaycan Sülh Platformasına qoşulmağımı təsdiq edirəm".

# Bakıda mənzildən kişi meyiti tapılıb

**Bakıda mənzildən meyit tapılıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhəri, Xətai rayonunda mənzildə 1 nəfərin bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

Dərhal nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri hadisə yerinə cəlb olunaraq mənzilin qapısını açıb və 1956-cı il təvəllüdlü Feyzullayev Əsəd Feyzulla oğlunun cəsədini aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

**39 gün sonra nəşi ermənilərdən geri alınan şəhidimiz Çingiz Qurbanovun anım mərasimi keçirilib. Fevralın 6-da Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində (TTM) baş tutan mərasimdə müdafiə naziri general-polkovnik Zakir Həsənov, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, hərbi prokuror Xanlar Vəliyev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, şəhidin ailə üzvləri, dövlət və hökumət nümayəndələri, hərbçilər iştirak edib.**

# Şəhid Çingiz Qurbanov Qusarda torpağa tapşırıldı















**Mərasimdə çıxış edən müdafiə naziri Zakir Həsənov şəhidin ailə üzvlərinə başsağlığı verib. Şəhidin atası Salman Qurbanov nəşin geri qaytarılmasına görə Azərbaycan prezidenti İlham Əliyevə, müdafiə naziri Zakir Həsənova və aidiyyəti qurumlara öz təşəkkürünü bildirib:** "Bu gün şəhid oğlumun 40-dır. Oğlum vətən uğrunda şəhid olub. Mən özüm də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə silah götürməyə hazıram".

Anım mərasimi başa çatdıqdan sonra şəhidin nəşi torpağa tapşırılmaq üçün Qusar rayonuna yola salınıb.

Şəhidin cənazəsi hərbi ehtiram qaydalarına uyğun olaraq fəxri qarovulun müşayiəti ilə rayona gətirilib. Yol boyu rayon sakinləri şəhidə öz ehtiramlarını bildiriblər.

Şəhidimiz günün ikinci yarısında torpağa tapşırılıb.

**Allah rəhmət eləsin!**

**❑ Məhəmməd TÜRKMƏN**
**❑ Fotolar müəllifindir**

# Amerikanın dünyanı idarə edən odsuz silahları...

## Dollar və sosial şəbəkələr bəşəriyyəti "əsir" alıb; **Elçin Mirzəbəyli:** "ABŞ-ın əsas güc olmasının böyük bir tarixi yoxdur"



**ABŞ-ın son illərdə dünyaya hərbi gücü ilə deyil, digər vasitələrlə meydan oxuduğunun şahidi oluruq. Belə ki, dünyanın supergücü əvvəlki on illərdə xarici ölkələri bir amillə - silahla, demokratiya adı altında silahlı basqılarla daha çox təsir dairəsində saxlayırdısa, indi tam fərqli vasitələrdən istifadə edir.**

İndi dünyanı idarə edən əsas güc ABŞ valyutası olan dollardır, sosial şəbəkələrdir, neftin qiymətinə edilən müdaxilələrdir. ABŞ istədiyi vaxt neftin qiymətini gah aşağı salır, gah da yüksəldir. İnternet məkanı üzərindən də Birləşmiş Ştatlar öz təsirini qoruya bilir.

Əhali və ərazi cəhətdən ABŞ dünyanın lideri deyil, iqtisadiyyatı güclü olsa da, Çin, Yaponiya və bəzi Avropa ölkələrinin iqtisadiyyatının heç də Amerikadan zəif olmadığını qeyd edə bilərik. Amma bununla belə, Amerika dünyanın əsas gücü olaraq qalmaqda davam edir və dünyanı fərqli vasitələrlə yönləndirir.

Ekspertlər bunu tarixdən gələn ənənələrlə bağlayırlar.

**Politoloq Elçin Mirzəbəyli ABŞ iqtisadiyyatının dünyanın bir nömrəli iqtisadiyyatı olduğunu bildirdi:** "Amerika iqtisadiyyatını digər ölkələrlə ümumiyyətlə müqayisə etmək olmaz. Nəzərə almaq lazımdır ki, dünya iqtisadiyyatı birbaşa Amerikadan asılıdır. Amerikanın silahlarından istifadə etməyərək, işğal faktını həyata keçirdiyini demək də doğru olmazdı. İraqda da silah işlədib, özü istifadə etməsə də, digər əraziləri işğal edəndə də silah işlədib. Birləşmiş Ştatların geosiyasi maraqlarının təmin olunması ilə bağlı müəyyən addımlar atıblar. Dollar Amerikanın milli valyutası olduğu üçün onun qiymətinin tənzimlənməsi birbaşa ona aid məsələdir. Neftlə bağlı faktorlar düşünmürəm ki, birbaşa ABŞ-la bağlıdır. Burada müxtəlif tendensiyalar var. Amerikanın dünya iqtisadiyyatına təsir etmək imkanları kifayət qədərdir. Sosial şəbəkələr vasitəsilə də rəy formalaşdırmaq imkanları kifayət qədər yüksəkdir. Amerikada fəaliyyət göstərən transmilli media orqanları da formalaşdırırlar. Burada təkcə ABŞ-ın adını qeyd etmək olmazdı. Birləşmiş Ştatlarla müttəfiq olan NATO dövlətlərinin də adını qeyd etmək olar. Onların birgə maraqlarının təmin olunması üçün bu istiqamətdə də birlikdə fəaliyyət göstərdiklərini demək mümkündür. Bütün bunlar uzun illər Amerikanın yürütdüyü siyasət nəticəsində mümkün olub. Amma bu gün Amerikanın maraqlarının dünyanın bütün qütblərində təmin olunduğunu deyə bilmərəm. Dünya dəyişir, dəyişdikcə də yeni situasiyalar yaranır. Təbii ki, ABŞ bu çağırışlara cavab verir, lakin bu çağırışlara cavab verən digər güclər də meydana çıxmaqdadır".

**Politoloq mövcud olduğu tarix boyu Amerikanın bu qədər imkanlara daim sahib olduğunu deməyin yanlış olduğunu düşünür:** "Birləşmiş Ştatların dünyanın əsas güc mərkəzinə çevrilməsi İkinci Dünya müharibəsindən sonra başlayıb. Təbii ki, Amerikanın əsas güc mərkəzi olmasında başlıca bir amil də var. Bu da keçmiş SSRİ ilə aparılan "soyuq müharibə"dir. Burada dünya iki qütbə bölündü. SSRİ ətrafında olan qütbün sosializm ətrafında cəmləşməsi və digər qütbün Amerika ətrafında, yəni kapitalizm ətrafında cəmləşməsi rəsmi Vaşinqtonu güc mərkəzinə çevirdi. "Soyuq müharibə" əsasən bu iki qütb arasında gedirdi. Bu mübarizə ABŞ-ın əsas güc kimi ortaya çıxmasına zəmin yaratdı. SSRİ-nin süqutundan sonra isə birqütblü dünyanın mövcud olduğunun şahidi olduq. Tarix boyu Birləşmiş Ştatların dünyaya meydan oxuduğunu düşünmək absurd olardı. Bütövlükdə ABŞ-ın əsas güc olmasının böyük bir tarixi yoxdur".

**E.Mirzəbəyli ABŞ-ın ərazi baxımından da dünyanın əsas dövlətlərindən biri olduğunu da qeyd etdi:** "Amerikanın yerləşdiyi geosiyasi mövqe, okeanlara çıxışı və başqa amillər tarix boyu bu dövlətin dünyadakı proseslərə təsir etmək imkanlarını artırıb. Məsələ heç də əhalinin sayında deyil. Rusiya nəhəng bir əraziyə sahiblik edir. Lakin o ərazinin hansı durumda olduğu hər kəsin gözü qarşısındadır. Zəngin təbii enerji ehtiyatları, meşələri olan Rusiya iqtisadiyyatı əgər bu potensiala söykənsəydi, çox güman bu yöndə diktə edən tərəf olmalı idi. Əsas söhbət idarəetmədən, sistemin necə təmin olunmasından, dünyada gedən proseslərə daha çevik yanaşmadan, daha çevik siyasət yürütmədən gedir. Bu məsələlər Birləşmiş Ştatları əsas gücə çevirib. Əhali sayına görə Çin və Hindistanın sayı bir neçə dəfə Amerikadan çoxdur. Cəmiyyət heç bir rol oynamır. Amma ərazinin yerləşdiyi geosiyasi mövqe müəyyən dərəcədə əlverişli rol oynayır".

**❑ Cavanşir ABBASLI**

# Azərbaycana artan terror hədələri - İŞİD daxilində mövqe qazanmaq, yoxsa...

## İlham İsmayıl: "Ölkəmiz beynəlxalq terrorizmin hədəfində deyil, amma təhlükəsizlik qurumları belə hədələri ciddiyə almalıdır"

**Son vaxtlar Azərbaycan təhlükəsizlik orqanları uğurlu əməliyyatlar keçirərək xeyli sayda terrorçu məhv edib. Bugünlərdə Türkiyədə keçirilən əməliyyatlar zamanı da bir neçə azərbaycanlı İŞİD-çi saxlanılıb. Buna baxmayaraq, bəzən internet üzərindən ölkəmizə yönəlik hədə dolu videomüraciətlərə də rast gəlinir.**

Bu hədələrin məqsədi nədir? Arxasında hansı niyyətlər dayanır?

**Sabiq təhlükəsizlik xidməti polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** deyir ki, Azərbaycan beynəlxalq terrorçuluğun hədəfində deyil.

"Daha çox Türkiyə, Avropa ölkələri, ərəb ölkələrinin özündə terror aktları baş verir. Ərəb ölkələrinin hamısında deyil, İraqda, Suriyada, yeri gələndə Əfqanıstanda, Pakistanda terror törədilir. Azərbaycan böyük mənada hədəfdə deyil. Azərbaycanda müsəlmanların çox yaşadığını nəzərə alırlar, bu baxımdan, həmişə plan tərtib ediləndə ölkəmizin adı orada yer alır. Bir qayda olaraq müsəlman ölkələrinin hamısını hədəfə götürürlər" - deyə ekspert bildirib.

**İ.İsmayıl deyir ki, İŞİD-in tərkibində, vaxtilə Şimali Qafqazdakı radikal İslam birləşmələrində azərbaycanlılar döyüşüblər, bu adamlar yeri gələndə gedib "Əl-Qaidə"yə çıxıblar:** "Bu gün də beynəlxalq terror təşkilatlarının sıralarındadırlar. Bu adamlar öz vətənlərini hədəfdə saxladıqlarını rəhbərlərinin diqqət mərkəzinə daxil etmək üçün müəyyən addımlar atırlar. Belə videoların yayılması da bu məqsədə xidmət edir. Belə videolarla narahatçılıq yaradır, öz güclərini göstərməyə çalışırlar. Hətta hesab edirlər ki, belə videolarla kimlərisə həbsdən azad etdirə biləcəklər, cəmiyyətdə nüfuz qazana biləcəklər. Bu cür videolar sanksiyalaşdırılmış şəkildə yayılır. Yəni terrorçu dəstələrin, təşkilatların başında dayanan rəhbərlərlə məsləhətləşib, onların icazəsini alıb, yayırlar. Bu adamların qarşısına tələb qoyulur ki, hər hansı bir şəkildə fəaliyyət göstərsinlər. İstənilən halda Azərbaycanın təhlükəsizlik qurumları belə hədələri ciddiyə almalıdır. Daimi olaraq o cameənin içərisində əməliyyat tədbirlərini gücləndirməlidir. Çünki biz oradan informasiya əldə etməsək, qarşı tərəf hansısa xoşagəlməz addımlar ata bilər. Həmin təşkilatlar böhranın gərginləşdiyi bir vaxtda əhalinin hətta yüngül bir etirazından yararlana bilərlər".

**İ.İsmayıl son bir neçə ayda ölkəmizdə həyata keçirilən və terrorçuların yerindəcə məhv edilməsi ilə başa çatan antiterror əməliyyatlarına da münasibət bildirib:** "Terrorçuların diri tutulması hansısa mənbələrə çıxmaq üçün daha əlverişlidir. Bundan əlavə, fikrimcə, əməliyyatın keçirilməsi, terrorçuların tutulması, məhv edilməsi əks olunan videoların yayılması doğru olardı. Bu, cəmiyyətdə rahatlıq yaradar, terrorçular cəmiyyətdə narahatlıq yaratmaq məqsədlərinə nail ola bilməzdilər. Terror cəmiyyətləri daim gərginlik içində saxlamaq, qorxu altında idarə edib öz istəklərinə çatmaq üçün bir üsuldur. Bu baxımdan, belə əməliyyatların videoları yayılmalıdır. Bu həm də təhlükəsizlik orqanı əməkdaşlarının özlərini daha inamlı hiss etmələri üçün vacibdir".

**Qeyd edək ki, bir müddət əvvəl DTX rəisi Mədət Quliyev qlobal xarakter almış terrorçuluğun və ekstremizmin doğurduğu problemlərdən danışmışdı. Demişdi ki, təhlükəli təzahürlərin coğrafiyası yeni ölkələrin və qitələrin hesabına daha da genişlənir:** "Terrorçuluqdan getdikcə çətin fərqləndirilən dini ekstremizm artıq müasir dünya üçün böyük təhlükəyə çevrilmişdir. Hazırda törədilən terrorçuluq əməllərində dini ekstremizmin əsasları özünü daha çox büruzə verir. Bunun başlıca səbəbi kimi "Əl-Qaidə", İŞİD və digər terrorçu təşkilatların öz dağıdıcı fəaliyyətlərində ənənəvi dinin ehkamlarını dəyişib əsl mahiyyətini təhrif edərək, ondan sui-istifadə ilə təlqin etdikləri dini-ideoloji təlimatları göstərmək olar".

**DTX tərəfindən keçirilən əməliyyatlara toxunan M.Quliyev qısa zamanda cinayətkarların, casusların məhv edilməsi üzrə əməliyyatlar keçirildiyini vurğulamışdı:** "Əməkdaşlarımız onları saxlayan zaman silahlı müqavimətlə rastlaşdılar, lakin bunun qarşısını qətiyyətlə aldılar. Ümumiyyətlə, Azərbaycan xüsusi xidmət orqanları bu istiqamətdə tək işləmirlər, digər dövlətlərin xüsusi xidmət orqanları ilə birgə çalışırıq, məlumat mübadiləsi edirik".

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

**2013-cü ilin sonu, 2014-cü ilin Novruz bayramına yaxın Rusiyada ardıcıl, silsilə kibercinayətlər start götürərək 2016-cı ilin dekabrına qədər dayanmaq nədi bilmir. Öz kibercinayətlərini "Şoltay-boltay" saytında tirajlayan bu qara hakerlər ilk olaraq Rusiya prezidenti Vladimir Putini nişan alırlar. 31 dekabr 2013-cü il tarixində Putinin Rusiya vətəndaşlarına yeni il müraciətini hardansa oğurlayıb, vaxtından xeyli əvvəl öz saytlarına yerləşdirirlər.**




# Rusiya kəşfiyyatının Türkiyə macəraları

## 15 iyul gecəsi amerikalı generallar necə tələyə salındı

**Sonra...**

Sonra qara hakerlər girişirlər Aleksandr Duqinin - bir nömrəli Kreml ideoloqunun, şəxsi bilgisayarına. O vaxtlar bu təcrübəli filosof bütün dünyadakı Rusiya tərəfdarlarının uzun siyahısını hazırlayıb lazımi məxfi ünvanlara çatdırmaq istəyirdi. Siyahıdakı mühüm şəxslər, Kremlin razılığından sonra Rusiya mass-mediasına maneəsiz çıxış haqqını qazanmalıymış, sən demə. Hakerlər adına "Duqinin siyahısı" deyilən həmin məxfi dosyeni hop edib elə havadaca oğurlayırlar. Siyahı keçir rusofob Qərb məxfi qurumlarının iti caynağına. Siyahıdakılar nəzarətə götürülür. Barələrində tədqiqat, türklər demiş, "güdü, pusu" başlayıb, bir-iki nəfərin şübhəli ölümü ilə nəticələnir lap axırda.

Amma nə su bir yerdə dayanır, nə Rusiya ştirlitsləri. Bəlli olur ki, kibercinayətkarlar təkcə elə bircə Duqinlə kifayətlənməyiblər. Hədəfləri, demək olar, bütün Rusiya siyasi elitası üzvləri, o cümlədən baş nazir Dmitri Medvedyevdir.

Hakerlərin dəsti-xətti eyni imiş. Hədəfdəki məmur bilgisayarına, əvvəlcə saxta Wi-Fi xətti atılır, sonra bu elektron ünvanın var-yoxu sovrulub talanırmış.

***

Sonradan bəlli olur ki, "Duqin siyahısı"nda ən ciddi ünvanlar, dosyelər Türkiyə hərbi-kəşfiyyat elitası ilə əlaqəli tam məxfi qovluqlardı. "Duqinin türk siyahısı"na "Şoltay-boltay" hakerləri vasitəsilə yiyələnmiş Vaşinqton siyasi elitası, son nəticədə bərk əsəbiləşib hiddətlənir. Məşhur Zbiqnev Bjezinski belə siyahıya qarşı biganə qalmır. Dövrü mətbuatda "Duqinin türk şəbəkəsi" adlı məqaləsi ilə çıxış edib, Amerika kəşfiyyatından Türkiyədəki fəallığını artırmağını tələb edir.

**Mövzuya marağınızı görüb, Aleksandr Duqinin son məqalələrindən kiçik nümunələri indi sizin diqqətinizə çatdırıram:**

"Türkiyədəki üç fərqli güc mərkəzləri sırasında ən ciddisi, kemalistlərlə hərbiçilərdi. Əvvəllər ABŞ, məhz bu gücə inanaraq Ankaranı öz nəzarəti altında saxlayırdı. Lakin sonralar Vaşinqton qərara gəldi bu atlantistləri "mülayim, demokratik islamçılarla" - Fətullah Gülən şəbəkəsi ilə əvəzləyib, öz köhnə kadrlarını - kemalistləri, ergenekonçuları siyasi arenadan silsinlər. Avrasiya məkanına, postsovet dünyasına millətçilər vasitəsilə deyil, FETÖ yoluyla girişsinlər...

2005-ci ildən başlayaraq general Vəli Küçük, Tuncar Kılıcla bizim məxfi görüşlərimiz başladı. Danışıqlara cavab olaraq, Vəli Küçük, habelə yüzlərlə digər erqenekonçular, türkçülər, turançılar FETÖ tərəfindən tutulub məhbəslərə atıldı...

Suriya üzərində Rusiya təyyarəsi vurulduqdan iki ay sonra "Vatan" Partiyası rəhbərliyi, əməkli hərbi kəşfiyyatçılar - İsmayıl Hakin Ekin, Sener Polad tam məxfi səfərlə Rusiyaya gəlib bizimlə görüşdülər. FETÖ sirlərini bizə açdılar. Təyyarənin Gülənin tapşırığı ilə vurulduğunu sübut edən sənədləri ixtiyarımıza buraxdılar. Əmri belə çıxır ki, Əhməd şəxsən özü imzalayıbmış...

Davudoğlunun Binəli Yıldırımla əvəzlənməsi faktı aramızdakı yeni dialoqa start verdi...

2016-cı ilin martında Türkiyəyə məxfi səfərim gözlərimi həqiqətə tam açdı. Gördüm ki, bəli, Türkiyədə bir deyil, iki hökumət var. Təyyarəmiz məhz FETÖ-nün bu paralel hökuməti tərəfindən düşürülüb...

15-16 iyul tarixində Ankarada idim. Ankaranın meri Melih Gökçəklə təmaslarımdan sonra FETÖ-nün bütün sirləri artıq mənə aydın idi... Bu vaxt da çevriliş başladı... Amerikaya 2 milyard dollara başa gələn bu əməliyyatı ABŞ generalı - vaxtilə Əfqanıstandakı hərbi qüvvələrə başçılıq etmiş general Kembell, Quş adalarındakı bir malikanədən idarə edirmiş, sən demə...".

***

Düzü, mən "Şoltay-boltay" hakerlərinin, Duqinə məxsus bilgisayara maneəsiz girib ordan Türkiyəyə aid sənədlərin oğurlanması faktına əvvəlcədən şübhə ilə yanaşmışam. Əvvəla, Duqini cibinizə qoymayın. Peşəkar hərbi kəşfiyyatçı ailəsində doğulmuş bu filosof, "şaltay-boltay"çılar, Amerika casusları tərəfindən güdüldüyünə özü əvvəldən elə bələd idi.

Kəşfiyyatçılarda nə varsa, həmişə iki nüsxədədir. Birincisi iz azdırmağa xidmət edən "dezo"lardı. İkincisi həqiqi fayllardı. Amma bu fayllar həmişə yeddi möhür arxasında gizlədilir. Açılması isə inanın mənə, əsla mümkün deyil.

İzlənildiyini duyan Duqin, məncə, öz mərhum atası, QRU generalı Qeliy Duqinin təcrübəsinə müraciət edərək öz bilgisayarını müxtəlif dezinformasiya nümunələri ilə doldurur. Yarıdoğru, yarıyalan informasiyalarla MKİ agentlərini aldadır.

Son nəticədə zərbə, tam başqa ünvandan dəyir Türkiyədəki Gülən şəbəkəsinə. Bunu Rusiya Strateji Araşdırmalar İnstitutu (RİSİ) rəhbəri Leonid Reşetnikov da, dövrü mətbuata verdiyi son müsahibəsində təsdiqləyib.

***

**Əks-kəşfiyyat işində həbslər, qətllər qəti mümkün deyil. Varsa, bu, uğursuzluq, qeyri-peşəkarlıq nümunəsidir. Gərək, sadəcə, hadisələri güdüb düşmənə saysız dezolar göndərəsən. Rusiya hərbi kəşfiyyatı QRU, bu cür də hərəkət edir o vaxt. Ərdoğanın hərbi ataşesi albay Ali Yazılının MKİ, FETÖ agenti olduğunu bilincə, ona mane olmur. Başlayır ovuclarını bir-birinə sürtməyə. Başlayır ona ilk növbədə Ərdoğanın gündəlik iş rejimi barədə saxta məlumatlar ötürməyə. Burda sözü verək yenidən Aleksandr Duqinə:**

"Çevriliş cəhdindən hələ doqquz ay əvvəl bizim hərbi kəşfiyyat bu barədə artıq xəbərdar idi. Bizimkilər qərara gəlirlər FETÖ-yə mane olmayıb ona Ərdoğan barədə yanlış məlumatlar ötürsünlər".

***

Deyilənlərdən nəticə çıxaran Türkiyə rəhbərliyi, ilk növbədə Ərdoğan öz mühafizəsini Rusiya hərbi kəşfiyyatının 25-ci elit bölmələrinə tapşıraraq, tez-tez narahatcasına öz qol saatına baxmağa başlayır.

Sui-qəsdçilər, ilk növbədə Ərdoğanı qətlə yetirib, sonra efirə "start!" siqnalını ötürməli imişlər. İyul ayının 15-də, axşam radələrində, rus kəşfiyyatı axır FETÖ-nü aldadıb onu üsyana təhrik etməyi bacarır. Ərdoğanın hərbi yavəri albay Ali Yazılı öz havadarlarına xəbər ötürür ki, bəs filan saatda Ərdoğan guya filan ünvanda olacaq. Fürsəti əldən qaçırmayın.

Üsyanın baş hədəfi Ərdoğan olduğundan, üsyançılara onun yalançı müqəvvası, belə deyək, "kuklası" sərgilənir. Nəticədə, general Kembell, əlindəki incə qədəhdən viskini dadıb, kobud barmaqlarını telefonundakı "start!" düyməsinə tərəf aparır.

***

FETÖ-çülər general Kembelin rəhbərliyi altında "Grand Yazici Club Turban" hotelə hücum edən zaman Ərdoğan artıq hoteldən çıxarılıb, başqa yerə aparılmışdı. Hücum zamanı hoteli qoruyan polislərlə əsgərlər arasında şiddətli döyüş baş verir. Çox sayda polis işçisi ölsə də, hücumçular bilmirlər ki, Ərdoğan artıq hoteldə yoxdur.

Hücumçuların çoxu məhv edilir, sağ qalanlar qaçaraq bir helikopterə doluşub təcili özlərini Yunanıstana çatdırırlar.

İndi Ankara Afinadan bu sui-qəsdçiləri Türkiyəyə qaytarmağı tələb edir. Cinayətin gələcək tədqiqatlarında bu kəslər "Kilid adamlar"dı deyə, onları xüsusi qoruma altında saxlamaq lazımdı. Yoxsa...

Yoxsa sabah yazıqların cansız cəsədləri Afina telekanallarında sərgilənə bilər axı.

***

Moskva da, Vaşinqton da, razıyam, dağıdıcı qüvvələrdi. Ancaq arada ciddi fərqlər mövcuddur. Kreml qlobal siyasi-iqtisadi sistemləri, Ağ Ev isə ölkələri parçalamaq istəyir. "Yerli dövlət idarəetmə mexanizmləri"ni dünya miqyasında müdafiə edən Kremlin bu dəfə maraq dairəsi Ankara ilə üst-üstə düşüb, deyəsən. Nəticədə, sonuncular öz tarixi rəqiblərinə - liberal qlobalistlərə qarşı yeni məxfi ittifaqda birləşiblər. Uzaq siyasi üfüqlərdə artıq yeni Bizansın hələ ki zəif silueti görünməkdədir.

Bosfor sahillərinə bütün ömrü boyu Rusiya cəmi ikicə dəfə yaxınlaşıb. İlk rus hökmdarı Oleq, qalxanını Konstantinopol qapılarına mıxlayandan sonra dünyada Rusiya dövləti yaranıb. Sonra uzun fasilə yaranır bu prosesdə. Ancaq Lenin bunu bir dəfə - 1922-ci ildə, Atatürk nümunəsində təkrarlamağı bacarır. Bu da öz növbəsində yeni Rusiyanın, yəni SSRİ-nin yaranması ilə nəticələnir.

İndi, deyəsən, bu, bir daha Putin-Ərdoğan modelində bərpa olunaraq yeni sabahlar vəd edir həm Kremlə, həm Ankaraya.

***

Olaylardan sonra Amerika kəşfiyyatı "Şoltay-Boltay" hakerlərinin dezinformasiya qurbanı olduğunu yəqin edib, öz qayğı əlini üzərlərindən kənara çəkir. Hakerlər buna lap əsəbiləşirlər. Aleksandr Duqinin bilgisayarına təkrar girib ordan 260 MB həcmində informasiya oğurlayırlar. Ancaq Duqinin pravoslav mesenatı Konstantin Moalofeyevlə yazışmasını özündə əks etdirən bu informasiya massivi Vaşinqtonda xüsusi ironiya ilə qarşılanıb, hakerləri bərk təşvişə salır lap axırda. Saytın rəhbəri - Vladimir Anikeyev məhz bu vaxt pulsuz qalıb FSB-nin qurduğu tələyə düşür. Tələ isə bax bu cür qurulur - kimsə Anikeyevə zəng vurub deyir bəs guya satdığı məxfi informasiyanı çox böyük məbləğə almağa hazırdı. Ancaq gərək Anikeyev Ukraynadan ayrılıb, cibində flaşkart, Neva sahillərinə gəlsin.

Ardını daha danışmıram. Piterdəki "Anqlater" hotelində, vaxtilə şair Yeseninin intihar etdiyi otaqda qalmağı sevən Vladimir Anikeyevə Rusiya kəşfiyyatçıları yaxşı bələd idilər. Bilirdilər Pitera gəldiyi vaxt o, eyni ünvanları gəzəcək. FSB-çilər "X" saatında hotelin pərdələri arxasından çıxıb Anikeyevi anında yerə yıxırlar.

Az sonra yaxalanmanın qəşəng şəkilləri bütün sosial şəbəkələrə paylanılır. Növbəti həbslər artıq cəmiyyət üçün adiləşir. Konstantin Teplyakov, Aleksandr Filin kimi hakerlərin həbsi isə artıq heç kimi maraqlandırmır.

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

**Azərbaycan prezidenti İlham Əliyevin Belçikaya səfəri davam edir. Rəsmi məlumata görə, prezident Brüsseldə bir çox mühüm görüşlər keçirib. O, öncə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviçlə bir araya gəlib.**

M.Şevçoviç qeyd edib ki, prezidentin bu səfəri və Avropa İttifaqı ilə əlaqələr, Azərbaycanla qurum arasında yeni sazişin hazırlanması, imzalanması və həyata keçirilməsi işində böyük əhəmiyyət daşıyacaq.

Daha sonra Azərbaycan prezidenti ilə Belçika kralı Filipin təkbətək görüşü olub. Görüşdə Azərbaycanla Belçika Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Prezident Belçika şirkətlərini Azərbaycan iqtisadiyyatının inkişafında iştiraka dəvət edib. Söhbət zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu vurğulanıb, regional, iqtisadi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bundan əlavə, prezident İ.Əliyev Brüsseldə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Mogerini ilə işçi yeməyi yeyib. (APA) F. Mogerini əməkdaşlığımızın daha da möhkəmləndirilməsi, əlaqələrimizin bundan sonra da genişləndirilməsi baxımından Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə səfərinin əhəmiyyətini qeyd edib, Avropa İttifaqında Azərbaycan prezidentinin keçirdiyi görüşlərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmli olduğunu bildirib. F. Mogerini “Cənub Qaz Dəhlizi” layihəsinin qurum üçün böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Qeyd olunub ki, Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı etimad yüksək səviyyədədir.

Söhbət zamanı Azərbaycan-Aİ əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, Azərbaycan-Aİ əməkdaşlığının perspektivləri, energetika, nəqliyyat, təhlükəsizlik, regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə də görüşü olub.





# Prezident İlham Əliyev Brüsseldə mühüm görüşlər keçirdi

## Dövlət başçısının AB rəhbərliyi ilə görüşlərində ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu vurğulanıb; Azərbaycan rəhbəri Avropa Parlamentinin prezidenti ilə görüşdən niyə imtina edib?

**“Azərbaycan Avropa İttifaqı üçün vacib tərəfdaşdır”.**

**APA-nın məlumatına görə, bu sözləri Donald Tusk prezident İlham Əliyevlə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.**

**D.Tusk bildirib ki, Brüsseldə Azərbaycan prezidenti ilə məhsuldar görüş olub:** “Biz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyirik. Azərbaycan Avropanın enerji təhlükəsizliyi və tədarükün diversifikasiyasında vacib ölkədir. Biz "Cənub Qaz Dəhlizi" layihəsinin başa çatdırılması ilə bağlı eyni maraqları bölüşürük. Bu, hər iki tərəf üçün əsas prioritetdir. Avropa İttifaqı hələ də Azərbaycanın əsas ticarət tərəfdaşı və aparıcı investorlarından biridir. Biz kommersiya əlaqələrini inkişaf etdirmək niyyətindəyik”.

**“Mən çox şadam ki, sabah (fevralın 7-də) biz Azərbaycanla Aİ arasında yeni saziş üzrə danışıqlara başlayırıq”.**

**APA-nın məlumatına görə, bu sözləri Azərbaycan prezidenti İlham Əliyev Tuskla görüşündən sonra keçirilən mətbuat konfransında deyib. O bildirib ki, Aİ-Azərbaycan əlaqələri çox məhsuldar və yüksək səviyyədədir:** “Tərəflər arasında əməkdaşlığı artırmaq üçün böyük potensial var. Bizim aramızda çox aktiv siyasi dialoq mövcuddur. Biz mütəmadi görüşlər keçirmişik. Ökəmizdə siyasi məsələlərlə və siyasi islahatlarla bağlı müzakirələr aparırıq. Azərbaycanda demokratik islahatların inkişafına sadiqik. Aİ ilə birlikdə "Cənub Qaz Dəhlizi" layihəsində aktiv iştirak edirik. Bu, ən böyük enerji layihələrindən biridir, dəyəri 40 milyard dollardır. Bu, enerji təhlükəsizliyi və enerji diversifikasiyası layihəsidir. Bu, nəinki dəhlizlərin, həm mənbələrin diversifikasiyası deməkdir. "Cənub Qaz Dəhlizi" layihəsinin icrası müvəffəqiyyətlə gedir. Avropa bizim əsas investorumuzdur və əsas ticarət tərəfdaşımızdır. Biz Avropada bəzi ölkələri neftlə təmin edirik. Ümid edirik ki, tezliklə qazla da təmin edəcəyik”.



**Donald Tusk:** “Azərbaycan Avropa İttifaqı üçün vacib tərəfdaşdır”

**“Uzun illərdir ki, Azərbaycan torpaqları işğal altındadır”, - deyə prezident bildirib:** “Ermənistan Azərbaycanın 20 faiz torpaqlarını işğal edib, beynəlxalq hüququ kobud şəkildə pozub, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri hələ də yerinə yetirmir. Bu qətnamələr Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüf ki, işğal 25 ildən çoxdur davam edir. Mən Avropa İttifaqına Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkür edirəm”.

**“Azərbaycan regionda yeni dəmir yolu xəttinin istifadəsi üçün böyük investisiya yatırıb” deyən dövlət başçısı bildirib ki, Asiya ilə Avropanı birləşdirən xəttin bu il istifadəyə verilməsi gözlənilir:** “Bu dəmir yolu xətti ”Şərq tərəfdaşlığı" və Avropa ölkələri üçün cəlbedici ola bilər. Bu xəttin istifadəsi yüklərin daşınması baxımından zamanın qısalmasına səbəb olacaq".

**Prezident qeyd edib ki, tərəflər arasında mədəniyyətlərarası dialoq əməkdaşlığın vacib istiqamətlərindən biridir:** “Azərbaycan Avropa Şurası və eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Biz coğrafi olaraq sivilizasiyalar arasında körpü rolunu oynayırıq. Bizim insan kapitalına və mədəniyyətlərarası dialoqa qoyduğumuz səylər öz nəticəsini verir”.

**İlham Əliyev deyib ki, Azərbaycan Aİ-yə üzv 9 ölkə ilə artıq strateji tərəfdaşdır:** “Bu, gələcək razılaşma üçün vacib bazadır. Bu gün əhəmiyyətli gündür. Biz əməkdaşlıqda yeni səhifə açırıq. Mən yeni saziş üzrə danışıqları aparanlara uğur arzulayıram. Ümid edirəm ki, onlar vaxt itirməyəcəklər, dərhal sabah işə başlayacaqlar və bizə tezliklə iki tərəf arasında strateji tərəfdaşlıq haqqında sənəd təqdim edəcəklər”.

**D.Tusk isə əməkdaşlığımızı yeniləmək və yeni ikitərəfli razılaşma ilə dərinləşdirmək istədiklərini söyləyib:** “Mən məmnunluqla bildirmək istəyirəm ki, tərəflər arasında yeni saziş üzrə danışıqlar sabah başlayır. Mən danışıqları aparanlara uğurlar arzu edirəm. Yeni razılaşma bölüşdüyümüz yeni qlobal iqtisadi və siyasi maraqların fonunda əməkdaşlığımızın əhatə dairəsini genişləndirəcək”



**İlham Əliyev:** “Şadam ki, fevralın 7-də biz Azərbaycanla Aİ arasında yeni saziş üzrə danışıqlara başlayırıq”

Prezidenti İlham Əliyev daha sonra Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerlə görüşüb.



“Turan” agentliyi səfərlə bağlı maraqlı xəbər yayıb. Bildirilir ki, Avropa Parlamentinin sədri Antonio Tayaninin prezident İlham Əliyevlə fevralın 6-da Bakı vaxtilə saat 14-ə planlaşdırılmış görüşü Azərbaycan tərəfin təşəbbüsü ilə ləğv olunub. Avropa İttifaqının saytında yer alan məlumata görə, İ.Əliyev fevralın 6-da Avropa Parlamentində Azərbaycanda insan hüquqlarının pozulması haqqında debatlar keçiriləcəyinə görə Tayani ilə görüşdən imtina edib. Virtualaz.org BBC-yə istinadən xəbər verir ki, bu barədə Avropa Parlamenti rəhbərinin kommunikasiya şöbəsi bildirib. Avropa Parlamentinin prezidentinin kommunikasiya şöbəsinin rəhbəri xanım Delia Vlase BBC Azərbaycancaya görüşün nə səbəbdən ləğv edildiyini bilmədiyini deyib. Lakin o əlavə edib ki, bu cür hadisələr “qeyri-adi” deyil.

Commonspace.eu xəbər saytı adları çəkilməyən mənbələrə istinadən görüşün ləğv edilməsinə səbəbin Avropa Parlamentində Azərbaycan prezidenti ilə Antonio Tajani ilə görüşlə eyni vaxtda “Meydan TV”nin rəhbəri Emin Millinin iştirakı ilə nəzərdə tutulan tədbirin planlaşdırılması olduğunu bildirir. Sayt yazır ki, bu tədbirə Bakıdan AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayıl da görüntülü danışıqla qoşulub.

Nəzərə çatdıraq ki, “İnsan haqları” ilə bağlı bu dinləməni Avropa Parlamentinin erməni-pərəst deputatları təşkil edib və onlar da həmin toplantıda iştirakçı olublar.

Azərbaycan hökuməti dəfələrlə Avropa Parlamentini anti-Azərbaycan mövqeyində və Azərbaycanın düşmənləri ilə əməkdaşlıqda ittiham edib.

***

**Politoloq Hikmət Hacızadə güman edir ki, Brüsseldə Azərbaycan və Avropa təşkilatı arasında bir sıra problemlər müzakirə edilir:** “İlk növbədə qazımızın Avropaya çatdırılması, daha sonra Avropadan maliyyə yardımının alınması məsələləri müzakirə predmeti olur. Bununla əlaqədar Avropadan ölkəmizlə bağlı insan haqları, demokratik islahatlar tələbləri də səslənə bilər. Əlbəttə ki, viza probleminin də müzakirə edilməsi mümkündür. Bunun həlli üçün ölkəmiz müəyyən hüquqi və praktiki addımlar atmalıdır. Fəqət hökumətimiz bunları etmək istəmir və ya ləngidir. Ümumən açıqlıq, şəffaflıq və dünya ilə əsl mənada əməkdaşlıq hökumətimizi narahat edir”.

“Avropa Parlamenti dəfələrlə Azərbaycana qarşı ədalətsiz mövqedən çıxış edib. Erməni lobbisinin təhriki ilə müxtəlif vaxtlarda Azərbaycan haqqında qərarlar qəbul edib. Baxmayaraq ki, Avropa İttifaqına inteqrasiya ilə bağlı ”Avronest"i yaratmışdıq, amma müxtəlif vaxtlarda Azərbaycana qarşı kampaniyalar aparıldı".

**Bunu isə “Yeni Müsavat”a YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov dedi. Bildirdi ki, hətta BMT qətnaməsinə zidd olaraq idmanı siyasətə qatdılar, Avropa Oyunları zamanı çağırışlar etdilər:** “Son nəticədə biz ”Avronest"dən çıxmaqla bağlı qərar qəbul etdik. Qərar qəbul olunduqdan sonra Avropa İttifaqı yenidən başladı ki, “səhvlər olub” və s. Bilirsiniz ki, Cənubi Qafqazda və postsovet məkanında Avropa İttifaqı ilə ən böyük layihələri həyata keçirən Azərbaycandır. 20 milyardlıq layihə həyata keçirilir. O baxımdan, artıq Avropa başa düşür ki, həm alternativ enerji təminatı, həm Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi məsələləri Azərbaycandan yan keçə bilməz. Bu baxımdan, görüşlərin böyük əksəriyyətində də cənab prezidentlə təmasa, müəyyən məsələlərlə bağlı fikir mübadiləsi aparmağa cəhd göstərirlər". **S.Novruzov qeyd etdi ki, əsas addımlar Avropa tərəfindən atılır:** “Biz kifayət qədər addım atdıq, lakin bunun qarşılığında o tərəfdən adekvat reaksiya görmədik. İndi yeni situasiya yaranıb, baxaq, görək ardı necə olur”.

Qeyd edək ki, Azərbaycan 2017-ci ildən başlayaraq Avropa İttifaqı ilə münasibətlərdə yeni mərhələnin başlanacağını vəd etmişdi. Brüsseldə də Bakı ilə Aİ arasında strateji tərəfdaşlıq haqqında saziş layihəsi ilə bağlı yüksək səviyyədə danışıqların keçiriləcəyi bildirilir. Məlumata görə, saziş energetika, iqtisadiyyat, nəqliyyat, ticarət, siyasət, insan hüquqları və s. sahələri əhatə edir. “Turan” agentliyinin məlumatına görə, Aİ ilə yeni saziş 1996-cı ildəki tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişi əvəzləyəcək.

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

**2016-cı ilin sentyabrında keçirilən referendumda Azərbaycan Konstitusiyasına edilən əlavələrdən biri də dövlət idarəetməsində birinci vitse-prezident və vitse-prezidentlik institutunun tətbiqidir. Ana qanunumuza belə bir yeniliyin əlavə edilməsindən 4 aydan artıq vaxt keçib. Lakin hələ ki qanundakı bu yenilik praktikada reallaşdırılmayıb.**

# Vitse-prezidentlərin 4 ay uzanan təyinatı...

## “Təyinatların hələ reallaşmaması qanun pozuntusu deyil”



Bir sıra siyasilər, deputatlar bu barədə açıqlamalarında bildiriblər ki, vitse-prezidentlərin təyinatı bu ilin aprelinədək olacaq. Bəziləri isə hesab edirlər ki, bu təyinatlar hətta növbəti prezident seçkilərindən sonra reallaşa bilər.

Bəs vitse-prezidentlərin təyinatı daha da uzana bilərmi?

Konstitusiyadakı yeniliklərdən birinin idarəçilikdə vitse-prezidentlər institutunun tətbiqinin nəzərdə tutulduğu da məlumdur. Bəs vitse-prezidentlərin təyinatı 2018-ci ildə keçiriləcək prezident seçkilərindən sonraya qala bilərmi, yoxsa prezident istənilən vaxt vitse-prezidentlər təyin eləyə bilər?

**Milli Məclisin üzvü, BQP sədri Fazil Mustafa** bildirib ki, müəyyən əsasnamələrin hazırlanması, bu vəzifədə olan şəxslərin müəyyən statuslarının dəqiqləşdirilməsi, sənədləşdirilməsi vaxt aparan işlərdir. Çox güman ki, bu məsələlərin həllindən sonra vitse-prezidentlərin təyinatı məsələsinin üzərinə gəlinəcək: “Çünki dəqiq səlahiyyətlər bölgüsü aparılmalıdır ki, məsələn, bilsin ki, baş nazirin səlahiyyətləri nədir, vitse-prezidentlərin səlahiyyətləri nə... Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarana bilər. Bu məsələlər həllini tapandan sonra prezident istənilən vaxt birinci vitse-prezident və vitse-prezidentlər təyin eləyə bilər. Qanunda konkret tələb qoyulmayıb ki, filan vaxtda və ya filan vaxta qədər bu təyinatlar həyata keçirilməlidir. Prezidentin səlahiyyətindədir ki, istədiyi vaxt təyinat həyata keçirsin. Ona görə də təyinatların hələ reallaşmaması qanun pozuntusu deyil. Biz siyasətçilər ancaq tövsiyə eləyə bilərik ki, filan qurumun formalaşması tez olsun-gec olsun. Nə zaman təyin etmək isə prezidentin səlahiyyətindədir”.

**Deputatın sözlərinə görə, prezidentin hətta vitse-prezidentlər təyin eləməmək və ya hətta bir neçə il sonra təyin eləmək imkanı, hüququ var. Çünki qanunda hər hansı bir şəkildə məcburi norma əksini tapmır:** “Odur ki, prezident istəsə, vitse-prezident təyinatlarını hətta 2018-ci ildə həyata keçirə bilər. Referendum təyin edilən zaman biz qeyd edirdik ki, bu məsələ daha çox xarici təhlükəsizliklə bağlı məsələlər ətrafında gündəmə gəlib. Bu, idarəetmədən daha çox, ölkə təhlükəsizliyi ilə bağlı boşluqların yaranmaması düşüncəsi ilə ortaya çıxan məsələ idi. Ona görə də hər hansı bir şəkildə beynəlxalq vəziyyətin gərginləşməsi anında bu addımın atılması mümkün ola bilər”.

❑ **Etibar SEYİDAĞA**



# Aqil Abbas müzakirələrə səbəb olan fotosundan danışdı

## **Deputat:** “O şəkil çəkiləndə Elçin Şıxlıya deyirdim ki, İsmayıl əmidən sonra Kür yetim qalıb”

**Deputat Aqil Abbas zaman-zaman müxtəlif mövzularla bağlı sosial şəbəkələrin gündəminə çevrilir. İnsanlar sosial şəbəkələrdə Aqil Abbasın səsləndirdiyi fikirləri bəzən günlərlə müzakirə edirlər. Məsələn, ötən ilin yanvar ayında Ağcabədidə iş və ucuzluq istəyən əhalinin etirazları ilə bağlı AzadlıqRadiosunun suallarını cavablandıran deputat rayondakı işsizliklə əlaqədər “Dövlət qulluq vermirsə, sənə torpaq verir. Get orda soğan ək, ailəni saxla. Məsəl üçün deyirəm ha, bunu. Mən də istəyərəm hamı işlə təmin olunsun. İşsizlik problemi ölkədə var, bunu kimsə danarsa, axmaq adam olar”,-deyə bildirmişdi.**

Sosial şəbəkələrdə isə deputatın “soğan ək, ailəni saxla” ifadəsi birmənalı qarşılanmamışdı və nəticədə istifadəçilər günlərlə bu məsələni müzakirə etmişdilər. Onu hətta təhqir etməkdən belə çəkinmirdilər. Bu məsələ indi də ara-sıra gündəmə gətirilir.

Milli Məclisdə çıxışı zamanı Aqil Abbas, yarızarafat da olsa, bu kimi hallara öz münasibətini aşağıdakı kimi bildirmişdi:

“Bu gün Azərbaycan parlamentinin ən çox söyülən deputatları mən, Fazil Mustafa və Hadı Rəcəblidir. Mənim atamın goruna sosial şəbəkələrdə 932 nəfər söymüşdü”...

İki gün öncə isə Aqil Abbasın sosial şəbəkələrdə tanınmış jurnalistlər Elçin Şıxlı və Qulu Məhərrəmli ilə fotosu paylaşılıb. Fotoda Aqil Abbas Elçin Şıxlıya tərəf əlini uzadaraq nə isə deyir. Bu məqam istifadəçilərin marağına səbəb olub və Aqil Abbasın burada hansı fikri söyləməsi müzakirə obyektinə çevrilib.

**Aqil Abbas “Yeni Müsavat”a bildirib ki, sosial şəbəkələrdə hər zaman onu tənqid edirlər:** “Hələ indiyə qədər görməmişəm ki, sosial şəbəkədə kimsə mənə rəğbət göstərsin. Ancaq bəlkə də ən azı mindən çox adama köməyim dəyib. İndi də haqqında danışılan şəkil çəkiləndə mən Elçin Şıxlıya deyirdim ki, İsmayıl əmidən sonra Kür yetim qalıb. İnanın ki, bax belə də deyirdim həmin vaxt. Mən Kürün sahilinə tez-tez gedirəm. İsmayıl əmidən (İsmayıl Şıxlı-red.) sonra həqiqətən də Kür yetim qalıb. Onun dəliliyi gedib”.

Aqil Abbas bildirib ki, sosial şəbəkədə Azərbaycanın həqiqi söz deyən adamlarını xaricdən maliyyələşən bir qrup şəbəkə istifadəçisi susdurmaq istəyir:

“İstəyirlər ki, danışmasınlar. Çünki düşünürlər ki, doğru sözü, həqiqəti söyləyən adamları susdurmaq lazımdır. Onlar buna çalışırlar və müəyyən mənada da susdura bilirlər. Çünki adamlar abır-həyalarına qısılırlar”.

❑ **Əli RAİS**

# Müxalifət YAP qərargahı önündə cavab aksiyası keçirəcəkmi?

**Fevralın 2-də Müsavat Partiyasının qərargahı qarşısında hakimiyyəti müdafiə edən bir qrupun etiraz aksiyası keçirildi. Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmayan piket polisin müdaxilə etməməsi, seyrçi qalması və aksiyaçıların Müsavatın sabiq başqanı İsa Qəmbərə qarşı şüarları ilə müşayiət olundu. Qeyd edək ki, buna qədər də zaman-zaman Müsavatın qərargahı, AXCP sədri Əli Kərimlinin evi qarşısında belə aksiyalar keçirilib. Lakin heç vaxt həmin partiyalar və onların tərəfdarları cavab aksiyası keçirməyiblər. Məsələn, Müsavat da ötən həftə müddətində YAP-ın qərargahı qarşısında piket keçirə bilərdi, ancaq keçirmədi.**

Bəs müxalifətin də YAP-ın qərargahı qarşısında cavab aksiyası keçirməsi lazımdırmı? Bəlkə belə olsa müxalifətə qarşı dəfələrlə istifadə edilən taktikaya son qoyulacaq?



**Tural Abbaslı:**
“Qərargahı qarşısında aksiya keçirilən siyasi qurumun həm mənəvi, həm siyasi, həm də hüquqi haqqı yaranır ki, adekvat tədbirlə cavab versin”



**Razi Nurullayev:**
“YAP müxalifətin təbliğatını aparmaq istəyirsə, yolları açıq olsun”

**Müsavat Gənclər Təşkilatının sabiq sədri, AĞ Partiyanın sədri Tural Abbaslı** bildirdi ki, ümumiyyətlə, 2 fevralda olan aksiyanı deyil, digər bu tip aksiyaları da analiz etsək görərik ki, bu metod hakimiyyətin müxtəlif məqsədlər üçün istifadə etdiyi taktikadır. Təəssüf ki, hakimiyyətin belə addımlarına müxalifət adekvat cavab verməyə özündə cəsarət tapmayıb və indi də tapmır: “Bunun qarşısı zamanında alınsaydı, bu gün artıq siyasi səhnədə belə vasitələrdən istifadə olunmazdı. Ancaq hər dəfə hakimiyyət belə vasitələrdən istifadə etdikcə müxalifət geri çəkildi deyə bu gün də həmin vasitələr işləkdir. Hesab edirəm ki, qərargahı qarşısında bu tip aksiya keçirilən siyasi qurumun həm mənəvi, həm siyasi, həm də hüquqi haqqı yaranır ki, adekvat tədbirlə onlara cavab versin. Bu piketə əgər polis bir yerdə müdaxilə etməyibsə digərində də etməsi düzgün görünməzdi. Hakimiyyət cavab tədbirinin keçirilməsinə imkan verməsə, həm daxili auditoriyada, həm də beynəlxalq aləmdə xoş olmayan vəziyyətə düşərdi. Partiyalar unutmamalıdırlar ki, qanun qarşısında YAP hansı hüquqlara malikdirsə, müxalifət partiyaları da eyni hüquqa malikdir. Bu balansın pozulmaması üçün müxalifət də daim mübarizə aparmalı və mövqelərindən geri durmamalıdır. Bu gün AĞ Partiyanın dövlət tərəfindən verilən rəsmi qərargahı yoxdur. Ancaq bizim qərargah qarşısında belə bir aksiya olsaydı, eynisini də biz YAP-ın qarşısında keçirərdik. Bu həm də nisbətən siyasi cəsarət və fədakarlıq tələb edən bir addımdır. Odur ki, digərlərini o qədər də qınamaq istəmirəm. Hər halda, hər kəs və hər təşkilat öz sərhədlərini yaxşı bilir”.

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirdi ki, müxalifətin YAP qarşısında cavab aksiyası keçirməsinə ehtiyac yoxdur. Buna heç imkan da verməzlər:** “Əgər müxalifətə qarşı bu kimi addımlar davam etsə, YAP qarşısında etiraz aksiyasının keçirilməsi müzakirə edilə bilər. Digər tərəfdən isə müxalifət olaraq təmkinliyimizi, dözümlülüyümüzü və dinc yanaşmamızı qorumalıyıq. Bəlkə də bu tip etiraz aksiyalarının keçirilməsinə normal da baxmaq olar. Əslində tənqid də bir təbliğatdır və YAP müxalifətin təbliğatını aparmaq istəyirsə, yolları açıq olsun. Bu tip aksiyalarda təhqirlərə və aşağılamalara yol verilməsi isə çox üzücüdür və təbii ki, yolverilməzdir".

**R.Nurullayev onu da dedi ki, biabırçılıq o həddə çatıb ki, İsa Qəmbərin gündəmə gəlməsinə paxıllıq edən, hakimiyyətin onun üzərinə getməsinə qısqanclıq edən, həzm edə bilməyən özünə müxalifət deyən qüvvələr var:** “Bunlar YAP-ı qoyub müxalifətlə mübarizə aparırlar. İsa Qəmbəri hakimiyyətə işləməkdə günahlandırırlar. Bu qədər yalançılıq və ikiüzlülük etmək kimin maraqlarına cavab verir? Onlarla bir yerdə olduğum zaman da bu kimi iyrəncliklərə etiraz etmişdim və yenə də edirəm. Milli Şuranın və onu oyuncaq kimi əlində fırladan şəxsin niyyəti müxalifəti sıradan çıxarmaqdır, yoxsa rejimlə mübarizə aparmaq?

Məqsəd siyasi səhnədə birincilik yarışıdır və o bunu da çoxdan itirib. Sadəcə, hakimiyyətdəki dostları onu yaşatmaqda və daima gündəmə gətirməkdə maraqlıdırlar. Bu düşüncədə olan adam, bu təfəkkür sahibi hakimiyyətə gələ və onu idarə edə bilməz. Onun məntiqindən belə çıxır ki, piket onun evinin qarşısında keçiriləndə hakimiyyətin təzyiqi, Müsavat qərargahının qarşısında olanda hakimiyyətin oyunudur. İsa Qəmbər də, mən də, Sərdar Cəlaloğlu da, İqbal Ağazadə də hər axşam ölkə prezidenti ilə çay süfrəsində oturu125ruq və planlar qururuq. YAP Siyasi Şurasının üzvləri ilə isə gündə on dəfə zəngləşirik, görüşürük və plan cızırıq ki, İsa Qəmbərin üzərinə getmək lazımdır. Niyə? Çünki düz 20 ildən çoxdur ki, “Yurd” sədri deyir gələcəyəm və sizi kəsəcəm. Hər kəs qorxusundan gecələr də yata bilmir. Sadəcə, utanmaq lazımdır, həm də ayıbına kor olmaq".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

**Rusiya prezidenti Vladimir Putinin keçmiş SSRİ-ni bərpa etmək planının olması barədə zaman-zaman fikirlər səslənir. İndi də ilin sonunadək Kreml sahibinin bu niyyəti həyata keçirmək planının olması barədə şok xəbərlər yayılıb.**

# Putin SSRİ planından əl çəkmir - Kreml onu gerçəkləşdirə biləcəkmi?

## Fəzail Ağamalı: "Sovetlər dağılsa da, Rusiya, faktiki, imperiya olaraq qalır və yenə dünyaya meydan oxuyur"

Əslində qalsa, Putin hakimiyyətdə olduğu süreçdə belə fikirlər çox səslənib. SSRİ-nin dağılmasında birbaşa günahkar görünən sovet imperiyasının sonuncu prezidenti Mixail Qarboçovun son açıqlamasını xatırlatmaq kifayət edər. Ekspertlərə görə, belə fikirlərlə Putin nəbz yoxlamaq istəyir, təsir dairəsində olan ölkələrin reaksiyalarını öyrənməyə çalışır. Bütün bunlara rəğmən, keçmiş sovet ölkələrinin öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldıqları dilə gətirilir. Azərbaycanın da bu məsələlərdə diqqətli olması vurğulanır.

**Ana Vətən Partiyasının sədri, tarixçi professor, deputat Fəzail Ağamalı SSRİ dövründə indiki Rusiyadan fərqli olaraq, imperiya sərhədlərinin daha geniş olduğunu söylədi:** "Sovetlər dağılsa da, Rusiya, faktiki, imperiya olaraq qalır. I Pyotrun yaratdığı və sələflərinin oktyabr inqilabına qədər qoruya bildiyi əraziləri indiki Rusiya da SSRİ dağılandan sonra qoruya bilib. Putin dövründə Rusiya kifayət qədər gücləndi. Bunu etiraf etməliyik. Eyni zamanda Amerikanın əvvəlki prezidenti Barak Obama dövründə Rusiya bir az da gücləndi. Beynəlxalq aləmdə missiyalarını həyata keçirmək üçün kifayət qədər manevr imkanları əldə etdi. Putin güclü lider kimi özünü sübut etdi. Hətta Avrasiya İttifaqını yaratmaq üçün konkret addımlar atıldı. Siyasi sistemin yaradılması yolunda atılan addımlara bəzi ölkələr də qoşuldu. Sirr deyil ki, bu ittifaqa Rusiya keçmiş müttəfiq olduğu ölkələri də cəlb etmək istəyir. Ukrayna bura daxil olsaydı, ittifaq daha da güclənərdi, amma bu proseslərdən Ukrayna uzaqlaşdı. Moldova artıq Avropaya tam qovuşmaq ərəfəsindədir. Əminəm ki, Avropa Ukrayna və Moldovanı heç zaman Rusiyanın ağuşuna atmayacaq. Bütün imkanlardan istifadə edərək, buna mane olmağa çalışacaq. Qafqaza gəlincə, Gürcüstan artıq bəllidir, Qərbə doğru sürətlə gedir. Yaxınlarda viza rejiminin ləğvi ilə Gürcüstan Avropaya doğru daha bir mühüm addım atdı. Ermənistan Avrasiya İttifaqındadır. Azərbaycan isə tam müstəqil siyasət yürüdür. Əminəm ki, bu siyasəti sona qədər davam etdirəcəyik. O halda biz Avrasiya İttifaqına qoşula bilərik ki, ərazilərimizin suverenliyi tam təmin olunsun. İşğal olunmuş torpaqlarımız geri qaytarılsın. Avrasiya İttifaqına o zaman daxil olmaq mümkün ola bilər ki, suverenliyimiz təmin olunarkən bunu tanısın. Gələcəkdə bu məsələlər müzakirə predmeti ola bilər. Hərbi ittifaqlarla bağlı Azərbaycan öz yolunu seçib. Qoşulmayanlar İttifaqının üzvüdür. Orta Asiya dövlətlərindən ən güclüsü olan Qazaxıstan artıq Avrasiya İttifaqındadır. İstənilən halda Rusiya orada qalan Özbəkistan və Türkmənistanı da bu yollarla ittifaqa qoşa bilər. Buna şübhə etmirəm. Orada vəziyyət getdikcə Rusiyanın xeyrinə dəyişməkdədir. Azərbaycan öz suverenliyini və müstəqilliyini qorumaq üçün sona qədər öz iradəsini ortaya qoyacaq. Bunu ölkə başçısının həyata keçirdiyi siyasətin məntiqi və mahiyyəti deyir. Azərbaycan xalqı da müstəqilliyinin və suverenliyinin itirilməsinə heç zaman razı olmayacaq. Amma tarixi situasiyalar heç də həmişə bizim istədiyimiz kimi getmir. Bu situasiyalar elə vəziyyət yarada bilər ki, indiki Rusiya imperiyası tamamilə çökə də bilər, yaxud situasiya yetişə bilər ki, Rusiya SSRİ niyyətini həyata keçirmək üçün konkret addımlar atar. Nəticədə dünya düzəninin dəyişməsində ciddi proseslər meydana çıxar. Ortalıqda olan odur ki, Rusiyanın indiki prezidenti çox ciddi iddialarla yaşamaqdadır və bu iddialardan geri çəkilmək fikrində deyil".



**F.Ağamalı müxtəlif şəxslərin dilindən səslənən bu cür ifadələrin Rusiyanın niyyətinin anonsu olduğunu da qeyd etdi:** "Lavrov müxbirin sualına Azərbaycanın suveren hüquqlarını pozaraq, ölkəmizin müharibə aparmasının yolverilməz olduğunu dilə gətirir. Görün bu məsələ hansı səviyyədədir ki, Rusiyanın xarici işlər naziri tərəfindən suveren hüquqlarımız kobud şəkildə pozulur. Təhdidlər indi də var. Onlar bu niyyətlərini gizlətmirlər. Ən müxtəlif yollarla keçmiş SSRİ respublikalarına təsir etməyə çalışırlar. Bunlardan ən universal formaya çevrilən münaqişələrdir. Azərbaycan, Ukrayna, Gürcüstan və digər dövlətlər münaqişənin içərisindədir. Orta Asiyada Rusiya istənilən hal münaqişələr dövlətlər arasında yarada bilər. Nəticədə həmin yerlər qonşu ölkənin nəzarəti altına keçə bilər. Rusiyanın əlində belə imkanlar var. Hələ "5-ci kolon" və millətlərarası salınacaq ədavətləri demirəm. İstənilən hal bundan istifadə oluna bilər. Rusiya bu cür vasitələrlə öz ərazi iddialarını həyata keçirmək imkanlarına malikdir. Təəssüflər olsun ki, bunlar bir faktdır. Rusiya artıq ayrı-ayrı dövlətlərə öz yaxın adamlarını yerləşdirməkdədir".

**F.Ağamalıya görə, Avropa İttifaqında bu gün iki qütb var:** "Bir qütb Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasını tələb edir, digər qütb bunun əksinə çıxır. Amerika cəmiyyəti də eyni durumdadır. Bu da etiraf etmək lazımdır ki, Rusiya və onun kəşfiyyat orqanlarının fəaliyyətinin nəticəsidir. Rusiya bu gün dünyaya sözün həqiqi mənasında meydan oxuyur. İstənilən halda Azərbaycan bu ölkə ilə gərginliyin yaranmasına imkan verməməlidir. Rusiya əmin olmalıdır ki, Azərbaycandan ona ziyan gələcək heç bir addım atılmayacaq. Necə ki, indi orada belə bir əminlik var. Biz onların əlinə bəhanə verməməliyik. Bu gərgin vaxtlarda ölkə başçısı çox uğurlu siyasət apararaq, bizə lazım olan siyasəti qurub".

❑ **Cavanşir ABBASLI**

# Türkiyənin taleyini dəyişəcək çətin aprel seçimi

## Heç bir iddialı analitik referendumun necə nəticələnəcəyi barədə qəti söz deyə bilmir

**Türkiyə aprel referendumuna hazırlaşır, amma bu sıradan bir seçki deyil. Hər kəsə məlumdur ki, Türkiyədə seçkilər çox aktiv, yarış ab-havasında keçir. Siyasi partiyalar, media, ictimai qruplar referenduma köklənərək kampaniyalar aparır. Bunun yanında ziyalılar, universitet müəllimləri, türk siyasətinin aktiv şərhçiləri olan əsnaf (ticarətçi) da referenduma köklənib.**



Əslində olmalı olan da budur. Türkiyə faktiki olaraq yeni respublikaya keçidin astanasındadır. Türk cəmiyyəti nə deyəcək, xalq referendumda hansını seçəcək? Bu günə qədər olan sistemi, yoxsa yeni prezident üsul-idarəsinimi? Referenduma iki aydan çox qalsa da, hər kəs bu haqda danışır. Artıq təbliğat-təşviqat kampaniyası başlayıb, siyasətçilər görüşlər keçirirlər. Xalqın böyük dəstəyini alan prezident Rəcəb Tayyib Ərdoğanın da kütləvi mitinqlərə qatılacağı gözlənilir. Referendumun taleyinin həll olunmasında bütün digər seçkilərdə olduğu kimi, bu faktor həlledici rol oynayacaq. Ancaq dəyişikliyə qarşı olanlar da az deyil. Bu mənada hələlik heç bir iddialı analitik referendumun nəticələri ilə bağlı qəti söz deyə bilmir.

### Referendum Türkiyədə nəyi dəyişəcək?

Bu barədə media artıq dəfələrlə yazıb. Konstitusiyaya təklif edilən 18 maddədən ibarət dəyişikliklər paketi ölkənin hazırkı parlamentar sistemdən imtina edib prezident üsul-idarəsinə keçidi nəzərdə tutur. Qısaca desək, dəyişikliyə əsasən ölkədə mərkəzi icra hakimiyyətinin başçısı və hökumətin rəhbəri prezident olacaq. Daha əvvəl parlamentdə olan səlahiyyətlərin bir qismi və baş nazirin səlahiyyətlərinin əsas hissəsi prezidentə keçəcək. Türkiyə prezident respublikası olacaq.

Bu dəyişikliyin tərəfdarlarının arqumenti ondan ibarətdir ki, ölkəyə daxildən və xaricdən artan təzyiqlər, separatizm, iqtisadi və siyasi təzyiqlərə qarşı hökumətin daha da mərkəzləşdirilməsi güclü səlahiyyətlərə sahib prezident hakimiyyətinin ölkənin yığılıb qalan problemlərini daha yaxşı və sürətli həll edə biləcək. Türkiyə hazırda çox ciddi təzyiqlərlə üz-üzədir, hesab olunur ki, bu gün Türkiyə regionda ciddi siyasi oyunçu, bölgədə sabitliyin müdafiəsində yeni rolu öz üzərinə almaq istəyən liderliyə iddialı dövlətdir. Hazırkı siyasi sistem və dövlət idarəçilik forması isə Türkiyənin yeni missiyanı öz üzərinə almasına imkan vermir, daha süst və ağır çalışır. Bu səbəbdən də Türkiyənin regiona açılması, qüdrətli dövlət kimi çıxış etməsi üçün mütləq sistemdə yenilənmə olmalıdır.

Əks cəbhədə də bu fikirlərə alternativ arqumentlər var. Hakimiyyətin bir nəfərin əlində cəmləşməsi ilə avtoritarizmin daha da güclənəcəyi, söz və ifadə azadlığının daha da məhdudlaşacağı, respublika quruluşunun sıradan çıxacağı kimi ənənəvi əks- arqumentlər var. Türkiyədə son illərdə söz və fikir azadlıqlarının durumu bu cəbhənin arqumentini daha da gücləndirir. Amma indi prosesin gedişində bu arqumentlərin nə qədər dəstək tapacağını demək mümkün deyil.

Qeyd edək ki, son olaraq 2010-cu ildə keçirilən referendum zamanı seçicilərin 57 faizdən çoxu hökumətin dəyişiklik paketini dəstəkləmişdi. Hakimiyyət indi də hökumətin və ən əsası prezidentin həddən artıq populyarlığı, alternativ siyasi qüvvələrin zəif olması amilinin qələbəyə mühüm təsirinin olacağını proqnozlaşdırır. Amma ortada bir suala hələ də qəti cavab verilməyib: referendum Türkiyəni düşdüyü vəziyyətdən çıxarmağa qadir olacaqmı?

Hər kəs etiraf edir ki, indiki çətin vəziyyətdən çıxmaq üçün ölkədə siyasi hakimiyyətin daha mütəhərrik və güclü əldə cəmlənməsi mühüm amildir. Amma hər kəsə o da məlumdur ki, hazırkı hakimiyyətin özünün də çox güclü, hakimiyyətin bütün qanadı üzərində təsiri mövcuddur. Üstəlik, hazırkı prezident ölkə üzərində, xalq arasında böyük nüfuza malikdir. Amma bu vəziyyət ölkədə mövcud problemlərin həllində effektiv olmur. Yəni hakimiyyətin daha da mərkəzləşdirilməsi ideyasının xalq arasında güclü dəstək qazanması inandırıcı deyil. Lakin istənilən halda hazırda AKP-nin və prezident Ərdoğanın güclü nüfuzu onun referendumda qalib gəlməsinə ümidləri artırır. Hakimiyyətin yenidən seçkilərə gedib, parlamentdə əsas çoxluğu əldə etməsi alternativ plan olaraq görünür, ancaq hər şeyin tam tərsinə getməsi təhlükəsi də qalır.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Viza embarqosu oyunları

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda keçiriləcək 4-cü İslam Həmrəyliyi Oyunlarına uca millətimiz böyük həvəslə hazırlaşır. Məscidlərdə, pir və ocaqlarda, mədrəsə və hücrələrdə hər gün oyunlara dua edilir. Şeyximiz Allahşükür müəllimin, o cümlədən idarənin gənc və perspektivli əməkdaşlarından Hacı Şahin yoldaşın bu temada müvafiq xütbələri dindarlar tərəfindən səbirlə dinlənilmiş, dəfələrlə sürəkli alqışlanmışdır. Onlar bildirmişdir ki, bu oyunların Azərbaycanda keçirilməsi Allah-təalanın bizə bir lütfüdür, çünki planetin başqa yerlərinə asteroid düşməsi təhlükəsi vardır.**

Bu il həccə getməyin qiyməti milli valyutamızın dollar cəhənnəminə vasil olması səbəbindən 8 min manata qalxdığı üçün cəmi 600 müsəlmanımız Məkkəyə yollana biləcəkdir, əvəzində isə minlərlə müsəlman idmançı Bakımıza təşrif buyuracaqdır, əvəzi çıxacaqdır. Məşhur ərəb şeyxlərindən Əl Qulqul bin Pulpul əbu Dəvədabani keçən cümə Dübaydakı məşhur Bürc-əl-Ərəb məscidindən bütün dünya müsəlmanlarına Azərbaycana ördək ovuna getməyi məsləhət görmüşdür.

Təbii ki, bütün bunlar bizi sevindirməyə bilməz. Hərçənd, dilxoredici məqamlar da var. Misal üçün, adından göründüyü kimi, bu, 4-cü müsəlman oyunlarıdır. Bəs bunun qabaqkı 3 dənəsi harada olubdur? Niyə biz bundan xəbər tutmamışıq, nə üçün qabaqkı islam oyunları da Bakıda keçirilməyibdir? Əsas oynağan biz ola-ola, oyunları niyə başqaları keçiribdir? Pensiyaçılar təqaüdündən, həkimlər maaşından, tələbələr yol pulundan, jurnalistlər qonorarından, icra hakimləri yeyintidən, əsgər və zabitlərimiz başından keçməyə hazırdır, təki respublikamızda həmişə hansısa oyunlar olsun, idmançılar tatami üzərində dombalaq aşsın.

Fikrimcə, qabaqkı 3 islamiadadan xəbərsiz olmağımız, estafeti əldən verməyimiz Xarici İşlər Nazirliyinin yarıtmaz fəaliyyəti ilə sıxı surətdə bağlıdır. Biz xaricdə səfirlikləri elə buna görə saxlayırıq ki, onlar gözdə-qulaqda olsunlar, harda bir idman turniri, yiyəsiz qalmış yarışdan-zaddan tapsalar, dərhal götürüb vətənimizə gətirsinlər, respublikamızın şöhrəti aləmə yayılsın. Bunlar isə 3 turnir yatıblar! Dəhşətdir. Birinci bizdə olmayıb, ikinci başqa yerdə olub, barı üçüncüdə oyanaydınız! Dörd nə deməkdir?! Məncə Elmar müəllim istefa versin, yerinə Polad Bülbüloğlu qoyulsun. Polad müəllimin heç olmazsa babat səsi var, mahnı oxuyub turnirləri vaxtında aşkar edəcəkdir.

Gənclər və idman naziri Azad Rəhimov təzəlikcə bir açıqlama verdi, dedi ki, dünyada olan 57 müsəlman dövlətindən 50-si Bakıya gəlməyə razılıq verib. Qalan 7 dövlət tamam lüt-ətcəbala imiş, yarışa gəlməyə pul tapmayıblar, Azad müəllim onların iştirak pulunu Azərbaycanın ödəyəcəyini muştuluq vermişdir.

Halal olsun. Ancaq niyə qalan 50 dövlət bəzi xərclər çəksin? Onların da hər bir xərcini biz verə bilmərikmi? Avropa Oyunlarında hamısını biz vermişdik. İndi elə çıxacaq ki, Azərbaycanın avropalılara münasibəti müsəlmanlara münasibətindən daha istidir. Məcburi köçkünlərin bəziləri işıq pulu kompensasiyasından imtina edib o pulları dövlətə bağışlamışdı, indi biz oyunlar yaxşı keçsin deyə qazın, benzinin qiymətini qaldıra bilmərikmi? İndicə Zəngilan müəllimləri və Füzuli həkimləri ilə əlaqə saxladım, onlar bildirdilər ki, oyunların xərcini tam ödəmək üçün il boyu pulsuz işləməyə can-başla hazırdırlar. İnsan belə zəhmətkeşləri görəndə gözləri dolur.

Yeddi demişkən, Amerikada Trampın viza embarqosu qoyduğu yeddi müsəlman dövlətin siyahısını görəndə mənim ağlıma fantastik dövlətçi bir ideya gəldi: olmazmı biz həmin 7 müsəlman dövlətini Bakıya çağırıb onlar üçün ayrıca idman turniri keçirdək?

Türkdilli xalqlar arasında Turan Oyunları, İranla sərhədi olan dövlətlər arasında İran Oyunları, bənnalar arasında Qaldırıcı Kran Oyunları və sairə turnirlər də bizim təşəbbüs qaldırmağımızı gözləyir.

ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlərlə birgə Qarabağ Oyunlarının da vaxtı çoxdan keçir. Bir də görəcəyik kimsə artıq üçünü keçirib, dördüncü bizə qalıb...

# Rusiya postsovet məkanındakı "5-ci kolon"çulara səslənir

**ABŞ-da Donald Trampın prezident seçilməsi Rusiyada SSRİ-nin bərpası tərəfdarlarını və təbliğatçılarını da xeyli ruhlandırıb. Artıq kifayət qədər aydın görünən tendensiya belədir ki, SSRİ xiffəti çəkən rus siyasətçilər Trampın postsovet məkanına diqqəti azaldacağına ümid edib sovet məkanını daha rahat bərpa edə biləcəklər.**




# Kremlin "danışan dili" Qarabağ düsturunu açdı - şimaldan təhlükəli notlar

## SSRİ-nin məxməri bərpası haqda müjdənin qorxunc pərdəarxası; "Azərbaycanın yerinə Bakı quberniyası" vəd edən Jirinovskinin mövqeyi Lavrovun Qarabağ yanaşmasından ciddi fərqlənmir, çünki...

Həmin siyasətçilərin və sovet təbliğatçılarının ön sırasında isə Rusiyada Liberal-Demokrat Partiyasının sədri, ötən şənbə yenidən bu partiyanın lideri seçilmiş Vladimir Jirinovski gəlir. Qurultaydan sonra o, növbəti dəfə "parlayıb" və necə "parlayıb". Belə ki, Kremlin "danışan dil"lərindən sayılan Jirinovski Kremlin mövqeyini təbliğ edən "Tsarqrad TV" kanalına (kanalın rəhbəri Kremlin başqa bir "danışan dili" və qatı SSRİ tərəfdarı Aleksandr Duqindir) müsahibəsində, faktiki, postsovet ölkələrini hədələyib, SSRİ-nin bərpasının uzaq perspektivin işi olmadığının müjdəsini verib.

***

**Onun fikrincə, Rusiyanın keçmiş SSRİ-nin sərhədlərini "dinc yolla" bərpa etməsinin qarşısında heç bir manea olmayacaq.** "Çünki həmin keçmiş sovet respublikalarının əhalisinin özü bunu istəyir. Onlar görsələr ki, ABŞ əlini çəkir, qarışmır, Rusiyaya birləşmək üçün özləri xahiş edəcəklər. Çünki əhali bunu istəyir, onlar SSRİ vaxtında daha yaxşı yaşayıblar. İndi isə pis yaşayırlar, varlılar yaxşı yaşayır, kasıblar isə indiki sistemi istəmir. Mən Qafqazda olmuşam, Qazaxıstanda yaşamışam, bilirəm ki, heç bir etiraz-filan olmayacaq. Xüsusən də SSRİ-nin ləğv edilməsi qanunsuz olub, Belovejsk sazişinin heç bir hüquqi qüvvəsi yoxdur", - deyə qalmaqallı siyasətçi qeyd edib.

**LDPR liderinin sözlərinə görə, Rusiyaya birləşməklə keçmiş sovet respublikalarının hamısı "xoşbəxt olacaqlar". Çünki onların təhlükəsizliyi təmin olunacaq, perspektivləri yaranacaq, iş dalınca Rusiyaya qaçmalı olmayacaqlar. O, keçmiş SSRİ sərhədlərinin bərpa ediləcəyi halda Qarabağ probleminin də "öz-özünə həll olunacağını" iddia edib.** "Budur, Qarabağ. Onlar heç vaxt bu məsələni həll edə bilməyəcəklər. Ermənistanla Azərbaycan arasında daim müharibə olacaq. Ancaq biz onların hamısını götürəndə nə Qarabağ olacaq, nə Azərbaycan. Olacaq Bakı quberniyası, İrəvan quberniyası, Tiflis quberniyası, Kutaisi quberniyası, çarın vaxtındakı kimi" - LDPR sədri arxayıncasına bildirib və bununla əslində Rusiyanın Qarabağ siyasətinin mahiyyətini faş edib, Kremlin nədən on illərdir bu problemi yoluna qoymaq istəməməsinin baş səbəbini göstərib.

Bu səbəb əlbəttə ki, SSRİ-nin bir qədər fərqli formatda da olsa, bərpasına edilən ümidlərlə bağlıdır. Təbii ki, Rusiya rəsmiləri, prezident V.Putin bunu açıq söyləmirlər ki, mərkəzdənqaçma meylləri güclənməsin. Amma Jirinovski, Züqanov kimilər bunu ucadan dilə gətirirlər və bu notlar son vaxtlar xeyli artıb. Zatən, Putinin Avrasiya layihələri də SSRİ-nin "məxməri" bərpasına yönəlik projelər sayılır.

***

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ötən ilin aprel döyüşlərindən sonra Bakıya etdiyi səfər çərçivəsində Dağlıq Qarabağ mövzusunda söylədiyi bir fikri də bu yerdə xatırlatmağın yeri var. Lavrov yetərincə açıq mətnlə demişdi ki, Azərbaycan Avrasiya Birliyinə (oxu; SSRİ-nin bərpası layihəsinə) qoşulsa, problemin həli sürətlənə bilər. Diplomatik dildən tərcümədə bu, elə Jirinovskinin Qarabağ düsturundan ciddi heç nə ilə fərqlənmir. Sadəcə, Lavrov daha hiyləgər ritorika ilə anlatmaq istəyir ki, konfliktin "həlli" yalnız Rusiyanın dominant olduğu bir geosiyasi konqlomerat - Avrasiya Birliyi çərçivəsində mümkündür.

Ancaq biz SSRİ tərkibində bu "həll"in nədən ibarət olduğunu artıq görmüşük. Həmin nəsil hələ sağdır və Qarabağ nağıllarını, Qarabağ yaralarını unutmayıb. Biz Dağlıq Qarabağda ermənipərəst Vladimir Kazimirovun "Müvəqqəti İdarə Komitəsi"nin işğalçı-separatçıların xeyrinə hansı oyunlardan çıxdığını da yaxşı xatırlayırıq. Yəni Moskva Qarabağ ixtilaflını ədalətli şəkildə çözmək istəsəydi, bunu SSRİ-nin mövcud olduğu 80-ci illərdə asanca edərdi.

Etmədi. Əksinə, indi bir daha qənaət hasil olur ki, postsovet məkanında Dağlıq Qarabağ kimi münaqişəli ocaqları məhz keçmiş sovet respublikalarını əldən salıb təzədən vahid dövlətdə birləşdirmək naminə saxlayır, körükləyir, həll eləmək istəmir, üstəlik, hələ yenilərini yaradır - Ukraynadakı kimi.

***

Sözsüz ki, Moskva bu prosesdə özünün yerlərdəki "5-ci kolon"çularına da güvənir. Kreml ələlxüsus da hakimiyyət eşelonunda təmsil olunan "5-ci kolon"çulara bel bağlayır. Jirkin son açıqlaması həm də onlara hərəkətə gəlmək üçün bir çağırış, səslənişdir. Ancaq Rusiya siyasətçiləri unudurlar ki, məsələn, Azərbaycan öz müstəqilliyi və ərazi bütövlüyü yolunda minlərlə şəhid verib və xalq nə qədər məhrumiyyətlər çəksə də, bir daha Moskvanın boyunduruğu altına girməyəcək. Buna hamı mini-sorğu keçirməklə asanlıqla əminlik hasil edə bilər.

Niyə buna qəti əminik? Ona görə ki, Rusiya ilə ittifaqda tərəqqi, rifah mümkün deyil. Mümkün olsaydı, bunu o, öz xalqına bəxş edərdi. Rusiya gerilik, reqress deməkdir. Geriyə yol isə yoxdur. Ola bilməz...

❑ Siyasət şöbəsi




# Azərbaycan vətəndaşları Vyetnama elektron viza ilə səyahət edə biləcəklər

**Vyetnamda 40 ölkə, o cümlədən Azərbaycan vətəndaşları üçün elektron viza rejimi fəaliyyətə başlayıb.**

"Report" Vyetnam KİV-inə istinadən xəbər verir ki, elektron turist vizasının dəyəri 25 dollar təşkil edir. Viza 30 gün müddətində etibarlıdır.

Elektron viza almaq istəyənlər Vyetnamın İmmiqrasiya Xidmətinin saytında tələb edilən məlumatları qeyd etməlidir.



# Sanksiyalar altında qalan Putinin Ukrayna inadı...

## Elxan Şahinoğlu: “Rusiya bu direnişi yenə davam etdirəcək”

## Əhəd Məmmədli: “Putin Donbasdan çəkilməyə hazırdır, amma...”

**Qərb dövlətlərinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar üç ildir davam edir. Hətta bu qərarlar sərtləşdirilir, müddəti uzadılır. Görünən odur ki, şimal qonşumuz hələ sanksiyalar altında çox qalacaq. Çünki buna səbəb olan amil Putinin işğal etdiyi Ukrayna ərazilərini boşaltmamasıdır. O, Krım və Donbası hər vəchlə geri qaytarmamaqda israrlı görünür.**

Donald Tramp prezident seçilərkən ondan təkcə dünyanın yox, daha çox Rusiyanın gözləntiləri var idi. Amma görünən odur ki, ümidlər puç olur. Artıq Tramp Administrasiyası da sanksiyaların aradan qaldırılması üçün Ukrayna məsələsini şərt kimi Kremlin qarşısına qoyur.

ABŞ-ın vitse-prezidenti Maykl Pens açıq şəkildə Rusiyaya qarşı sanksiyaların ləğvinin Moskvanın beynəlxalq arenada, xüsusən Ukraynada özünü necə aparması ilə bağlı olacağını bəyan edib.

M. Pens bunu ABC telekanalına müsahibəsində bildirib.

M. Pens teleaparıcının “əgər Rusiya Ukraynanın hələ də suverenliyini pozursa, Rusiyaya qarşı sanksiyalar qüvvədə qalacaqmı” sualına cavab olaraq deyib ki, bu sualın cavabı qarşıdakı ayda məlum olacaq: “Bütün bunlar, sadəcə, bizim Rusiyanın davranışında dəyişikliklər görüb-görməyəcəyimizdən asılıdır”.

Göründüyü kimi, Amerika Ukrayna məsələsində heç cürə Rusiyaya güzəştə getmək fikrində deyil. Bunu bilən rəsmi Moskvanın hələ də direniş göstərməsi, sanksiyalar altında qalmaq yolunu seçməsi isə suallar yaratmaya bilməz. Ekspertlər hesab edirlər ki, Kremlin bu məsələdə qətiyyətli olmasına səbəb sanksiyalara tab gətirməsidir.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Tramp son açıqlamalarında sanksiyaların yumşalmasının gündəmdə olmadığını söyləyib:** “Tramp Rusiyaya mesaj olsun deyə, Ukrayna prezidenti ilə də telefonla danışdı. Rusiya aydın məsələdir ki, Krımda geri addım atmayacaq. Amma Donbas məsələsində geri addım ata bilər. Separatçılara anlada bilər ki, muxtariyyətə razılaşmaq mümkündür. Amma buna hələ ki, getmir və vəziyyəti bilərəkdən gərginləşdirir. Ukraynanın o hissəsində ağır döyüşlər gedir. Ola bilər ki, bu, Rusiyanın Trampla bağlı nəbz yoxlamasıdır. Vəziyyəti gərginləşdirəndə belə Tramp Rusiya ilə yaxınlaşacaq ya yox? Düşünürəm ki, Ağ Evin yeni sahibi üçün indiki vəziyyətdə Ukrayna məsələsini geri atmaq çox çətin olacaq. Baxmayaraq ki, o, Ukrayna problemini dilinə gətirmir. Çünki hazırda Ukraynada ağır döyüşlər gedir, bəşəriyyət Rusiyanı günahlandırır. Buna görə hesab edirəm ki, Amerikanın yeni administrasiyası Rusiya ilə əməkdaşlığa böyük önəm versə də, Ukrayna ilə bağlı ümumi razılaşmaya gəlmək üçün hələ uzun zaman var. Vitse-prezidentin dedikləri artıq Rusiyaya neçənci mesajdır. Kremlə çatdırılır ki, sanksiyalar yumşaldılmayacaq, Ukrayna məsələsində geri addım atmalıdır. Nə zaman ki, geri addım atılmayacaq, separatçılara dəyüşü dayandırmaqla bağlı rəsmi Moskvanın təzyiqi olmayacak, sanksiyalar davam edəcək. Rusiya bu direnişi yenə davam etdirəcək. İndi vəziyyət tamam dəyişib. Barak Obama dövründə də sanksiyalara ciddi direniş var idi, amma Trampla dostlaşmaq siyasəti var. ABŞ dostlaşmaq siyasətində çalışır ki, Donbas separatçılarına qarşı Rusiyanın təzyiqləri artsın”.

**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, sanksiya məsələsi iki tərəf üçün də prinsipialdır:** “Ruslar Trampın seçilməsinə nə qədər sevinsələr də, Tramp Amerikanın prezidentidir və öz dövlətinin maraqlarını qoruyacaq. Əslində Putin Donbasdan çəkilməyə hazırdır. Amma bir şərtlə ki, Krımın ilhaqı dünya birliyi tərəfindən tanınsın. Buna hətta Tramp kimi prezident belə çətin gedər. Çünki ABŞ Krımı Rusiya ərazisi kimi tanısa, onda Avropadakı müttəfiqlərin Amerikaya güvəni, inamı ciddi şəkildə zədələnəcək. Bu da o anlama gəlir ki, Rusiyaya qarşı sanksiyalar davam edəcək, hətta sərtləşəcək. Putinin direnişi davam edəcək, lakin Rusiyada prezident seçkiləri gözlənilir və bu dönəmdə Amerika Putinə qarşı daxildən güclü etiraz elektoratı hazırlaya bilsə, Putin xarici məsələlərdə güzəştə gedə bilər”.

❑ **Cavanşir ABBASLI**

# “Azərbaycanın ərazi bütövlüyünə dəstəyimiz qətidir”

## Ukrayna və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından 25 il ötür

**Ukraynanın Azərbaycandakı səfirliyində iki ölkə arasında diplomatik münasibətlərin yaranmasının 25 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.**

APA-nın xəbərinə görə, Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişşenko bu il Azərbaycan prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfər edəcəyini deyib. O, fevralın 19-da ukraynalı millət vəkillərinin Parlamentlərarası Dostluq Qrupu çərçivəsində Azərbaycana səfər edəcəklərini söyləyib.

**Səfir ölkəsinin xarici siyasətində Azərbaycanın vacib yer tutduğunu vurğulayıb:** “Rəsmi Kiyevin Azərbaycanın ərazi bütövlüyünə dəstəyi və status-kvonun qəbuledilməz olması barədə mövqeyi qətidir. Bu, 2016-cı ilin iyulunda prezident Poroşenkonun Azərbaycana səfəri zamanı bir daha təsdiqlənib”.



Azərbaycanın ərazi bütövlüyü uğrunda bir neçə ukraynalının öz həyatını qurban verdiyini nəzərə çatdıran A. Mişşenko rəsmi Bakının Ukraynanın ərazi bütövlüyü barədə BMT-nin qəbul etdiyi sənədləri dəstəkləməsini yüksəl qiymətləndirdiklərini bildirib. O, ikitərəfli münasibətlərin inkişafının ticarət və iqtisadiyyat, nəqliyyat, hərbi-texniki və enerji sahələrində əməkdaşlığın dərinləşməsinə yol açdığını vurğulayıb.

**Azərbaycan XİN-in ikinci Avropa Departamentinin direktoru İlqar Muxtarov 25 il ərzində münasibətlərin yalnız irəliyə doğru getdiyini deyib:** “Heydər Əliyevin dövründə 130-dək ikitərəfli sənəd imzalanıb və münasibətlərimiz strateji səviyyəyə qalxıb. İlham Əliyevin prezidentliyi dövründə iki ölkə arasında Prezident Şurası yaradılıb. Ərazi bütövlüyü məsələsində Azərbaycan Ukraynanın dəstəyini hiss edir və öz növbəsində Ukraynaya aid məsələdə beynəlxalq təşkilatların ikili standartlara yol verməsinə qarşı çıxır”.

Tədbirdə rəsmi şəxslər, politoloqlar, Ukrayna icmasının Azərbaycandakı nümayəndələri iştirak edib.

# Həyat bəzən yox, elə həmişə dadlıdır, deyilmi?...



Hüseynbala SƏLİMOV

**Bilmirəm, bəlkə ona qədər də kimsə bunu deyibdir... Bəlkə ona qədər də kimsə bu sualı veribdir. Amma mən bunu ilk dəfə A.Kamyudan, onun “Sizif haqda əfsanə” essesindən oxumuşam. O vaxtdan beynimdə ilişib qalıb və arabir öz-özümə təkrar etməyi də sevirəm bu sualı: “Həyat onu yaşamağa dəyərmi?”...**

Bəli, çox fəlsəfi bir məsələdir. İnsanın ömrü bir tərəfə, Yer-Ay sisteminin də, Günəş sisteminin də, Qalaktikanın da, hətta Kainatın da özünün ömrü sonludur.

Düzdür, insan ömrünü çıxmaqla, sadalanan bu zaman intervallarının hamısı astronomik tərtibdədir. Amma nə dəxli var?.. Əsas odur ki, heç nə əbədi deyil - hər şey doğulur və bir gün də öz həyatını başa vuraraq ölüb gedir...

Hələ onu demirəm ki, hamı bu dünyadan uzağı bir neçə metr əski, ən yaxşı halda isə bir kostyum aparır - istər ən böyük bir dövlətin prezidenti olsun, istər milyarder B.Qeyts, istərsə də küçələrdə avara-avara dolaşan bədbəxt bir bomj...

Bəli, qəzavü-qədərin qərarı çox, olduqca amansızdır... Amma nə etmək olar? Hələ indiyədək dünyanın ən böyük fatehləri, cahangirləri bu qərarı dəyişə bilməyibsə, biz nə edə bilərik?..

Nə isə, keçim əsas mətləbə..."Olum, ya ölüm?" sualını da ilk dəfə verən çox güman ki, Hamlet olmayıb. İnsan ilk dəfə sosiallaşmağa başlayandan ta bu günə qədər bu sualı özündən soruşubdur...

A.Kamyu bəlkə də birinci olaraq sualın fəlsəfi məzmununa diqqət çəkibdir. Amma ağır hökm də çıxarmayıb. Həyatın bütün mənasını bir yunan əfsanəsində ifadə edibdir - bəşər övladını Allahların cəzalandırdığı Siizfə bənzədib və qənaəti də o olub ki, Sizif hər dəfə daşı qaldırmaq üçün növbəti cəhdi edəndə böyüyür...

Elə mənə da budur - mənə Sizifin inadındadır... Amma deyəsən, yenə də aydın olmadı axı?.. Onda bir azca da xırdalayacam. Axır vaxtlar ölkədə intiharların sayı yenə də artıb.

Belə insanlara təsəlli üçün deyə biləcəyimiz çox az şey var. Bəzən onlar hətta özümüzə də haqlı görünə bilirlər...

Amma bir an olur bu - acizlik anında insan hamıya qibtə etməyə başlayır, o cümlədən də həyatla könüllü vidalaşanlara... Amma bircə an belə olur, bir anlıq zəiflikdən sonra yenə də işimizin-gücümüzün ardınca yollanırıq və işlər düzələn kimi isə yenə də həyatı sevməyə başlayırıq...

Səhv edirikmi? Əsla... Həyat həmişə gözəldir, hətta ən dözülməz çağlarında da! Elə mən də yazını son vaxtlardakı intiharlardan təsirlənib yazdım.

Bildiyim odur ki, bunun çox tərəfi var və bəlkə də hüquqi aspektlər onların içində ən primitividir. Məsələnin həm teoloji, həm fəlsəfi, həm də sosioloji aspektləri var. Teoloji tərəfi hamıya bəllidir - demək olar ki, bütün böyük dinlər intiharı günah sayır...

Fəlsəfi tərəfini A.Kamyudan oxumuşam. Sosioloji tərəflərini isə səhv etmirəmsə, ilk dəfə M.Veber araşdırıb. Bunların hamısını bircə - bircə sadalamağa ehtiyac yoxdur. Əsas odur ki, bəzən insana total ümidsizlik hakim kəsilir, o, özünün qarşısında da aciz olduğunu və ya da həyatının heç bir mənə kəsb etmədiyini düşünür...

Son vaxtlarda ölkədə belə halların artmasını həyatımızdakı böhranla bağlamaqdan savayı çarəmiz yoxdur. Dəqiq statistika aparmamışam və elə bu səbəbdən də indi deyəcəyim müəyyən mənada mübahisəli ola bilər. Amma yadıma gəlir ki, 90-cı illərin əvvəllərində də, ilk dəfə iqtisadi böhran həyatımıza ciddi şəkildə daxil olanda da intiharlar artmışdı...

Düzdür, kifayət qədər yüksək həyat səviyyəsi olan ölkələr də bundan sığortalanmayıblar - orada da intiharlar çox olur. Ona görə də əvvəldən bu məsələnin bir ucunu fəlsəfəyə, digərini də sosiologiyaya - cəmiyyətə və sosial münasibətlərə bağladıq...

Deyiləsi “tövsiyə”lərə gəldikdə isə, konkret məsləhət verməyə çətinlik çəkirik. Amma bircə onu deyə bilərik ki, tələsmək lazım deyil. Bəzən elə möcüzə yaranır ki, ən çıxılmaz vəziyyətdən qurtuluş tapılır. Əsas odur ki, gərək, bir az mübariz olasan. Bir az da səbrin olsun...

Bir daha deyirik ki, ən çıxılmaz vəziyyətlərdən belə bir də görürsən ki, çıxış tapılır. Həm də həyat bir filmdə deyilən kimi bəzən yox, elə həmişə dadlıdır...



# Fransız xalqının bikefliyi

Samir SARI

**Fransa xalqı daha kef eləmir, əksinə, vaxtilə Müsyo Jordanı qonaq edən qarabağlıların sözü olmasın, kərəvəngə qalıb. Buna səbəb odur ki, fransız xalqı özünə prezident seçmək istəyir, üç namizəd var, üçü də bir-birindən betərdir.**

Əlbəttə, 2-3 ay öncə seçki kampaniyasına başlayanda onların üçü də, türkün sözü, süddən çıxmış ağ qaşıq, ağ atlı oğlan, mələk simalı xilaskar idilər. Amma son bir ayda mətbuat onları elə bir günə qoyub ki, artıq adam arasına çıxası deyillər.

Üçü də əliəyri, korrupsioner, dələduz imiş. Üçü də dövlətə kəf gəlib, büdcədən pul-para çırpışdırıb yaxınlarına yedirdiblər.

Bir var, bunu onların rəqibləri teledebatlarda-filanda desin, bir də var, mətbuat yazsın.

Teledebatlarda səslənən fikirlər boş şeydir. Ona qalsa bizdə də elə deyirlər. Amma ortaya fakt qoyan yoxdur. Məsələn, Hafiz Hacıyev seçki kampaniyalarında bütün namizədləri korrupsiyada suçlayır, amma ortaya sənəd qoymur.

Fransada isə qəzetlər namizədlərin korrupsiya əməlləri haqda sənəd çap ediblər və onların, Tağı Əhmədov demişkən, aşağı ətrafları ilə manevr etmələrinə yer qalmayıb.

Ona görə də artıq Fransada heç bir namizədin real üstünlüyü yoxdur, deyəsən, heç biri seçilməyəcək.

Hər şey o tərəfə, ara yerdə vitse-spiker Ziyafət Əsgərov və baş nazirin müavini Əli Əhmədov haqlı çıxırlar. Onlar neçə illərdir, deyirlər ki, Avropada korrupsiya var.

Burada o sözü əsasən ona görə deyirlər ki, ölkəmizdə olan korrupsiyaya haqq qazandırsınlar. Doğrudan da əgər Avropada, məsələn, Fransada korrupsiya varsa, biz özümüzə motor qoyub göyə çıxsaq da, xeyri yoxdur, bizdə də olacaq. Hətta olmalıdır. Olmasa, ayıb olar. Fransızlardan çox bilirik?

Ona görə də gərək biz bu korrupsiya söhbətinin üstünə çox getməyək, birdəfəlik barışaq oturaq ki, bu normadır, labüddür, olub və olacaq.

Biz o dədələrin nəvələriyik ki, vaxtilə “bal tutan barmaq yalar” deyə bir kəlam irad ediblər. “Bal tutan barmaq yalar” ifadəsi əslində balçının ehtiyacı olduğu qədər korrupsiyaya yol verməsini ehtiva edir. Buna “icazə verilən korrupsiya” deyək. Yəni həddi keçmək olmaz, al, topla, yığ, özü paynı götür, qalanını böl, kim nə deyir ki.

Bir də var, sən “hamısı mənim” eləyəsən, sonra da gedib oturasan MTN generallarının, rabitə məmurlarının, beynəlxalq bankirlərin yanında.

O gün dostlardan biri yazıb ki, dövlət strukturlarından hansındasa bir sayt yaratmaq üçün 600 min manatdan artıq vəsaiti həzm-rabedən keçiriblər. Daha biri yazdı ki, bir neçə milyon manata hazırlanan, amma hələ başa gəlməyən saytlar da var.

Düzdür, “bunlar normal qiymətlərdir” yazan dostlar da var, amma biz də sayt işindəyik, bəzi şeyləri bilirik. O strukturların saytına il ərzində girib-çıxan, informasiya alan şəxslərin sayı qədər abonent bizim sayta bir gündə girib-çıxır, yüz dəfə də artıq məlumat alır.

Açıb baxırsan, primitiv hazırlanmış bir şey, nə bir funksionallığı var, nə qəliz bir idarəetmə və qoruma sistemi. Çox xərc çəkilibsə, 3 min manat. İndi təsəvvür edin, 3 min manatlıq sayt üçün dövlətdən on qat artıq pul çırpışdırardılarsa, 30 min edərdi, yüz qatlıq kəf gələrdilərsə, 300 min olardı. Amma bunlar sayt üçün azı 600 min, çoxu 3 milyon qapazlayıblarsa, bu 200 qat və 1000 qat artıq korrupsiya aktıdır.

Fransanın prezidenti olmaq istəyənlərin yol verdiyi korrupsiyanın rəqəmləri isə çox kiçikdir - 300 min, 500 min.

Fərq ondadır ki, bizdə bir nazirliyin baş idarəsinin ortabab şöbəsinin müdirinin müavini o cür məbləğlərlə iş görür.

İnanmayan hazırda məhkəmələrdə gedən “MTN işi”, “Rabitə işi” adlanan məhkəmə proseslərindən hazırlanan reportajları diqqətlə oxusun.

Məhkəmədə açıqlanan rəqəmlərə Fiyon da həsəd aparar, Le Pen də, Makron da (bunlar Fransada prezident olmaq istəyənlərdir). Bəlkə də xəcalət çəkər, hətta doğma fransız xalqını qədirbilməzlikdə qınayarlar, deyərlər, odur, Azərbaycanda adı milyard dollarlıq korrupsiyada hallanan iki nazir azadlıqda gəzir, onlara bir söz deyən yoxdur, amma siz 5-10 avroya görə bizdən hesab sorursunuz.

Bax, o namizədlər çıxıb xalqın qarşısında belə bir arqumentlə çıxış eləsələr, fransız xalqı da daş-qaya deyil, başa düşər, gedib kef eləyər. Bizim kimi.

# Dolları kim ucuzlaşdırır- Tramp, yoxsa Mərkəzi Bank...

## Ekspertlər dolların enişinin müvəqqəti olduğunu bildirirlər

**Dünya valyuta bazarında dolların ucuzlaşması fonunda Azərbaycanda keçirilən sonuncu valyuta hərracında da dolların enməsi müşahidə edilib. Ekspertlər isə bunun müvəqqəti hal olduğunu bildirirlər. Qeyd edilir ki, dolların ucuzlaşması müvəqqətidir və tezliklə əks prosesin şahidi olacağıq.**

Qeyd edək ki, fevralın 3-də 1 dolları 1,86 manatdan alan banklar fevralın 6-dan alış qiymətlərini 1,84 manat səviyyəsinə endiriblər. “Marja” xəbər verir ki, fevralın 6-da “Bank of Baku” 1 dolları 1,8450 manatdan alır. “Unibank”, “Yapı Kredi Bank Azərbaycan” dollara 1,85 manat alış qiyməti təyin edib. Banklarda dolların satış qiyməti isə 1,93 manatdan 1,92 manata düşüb. Əlavə edək ki, “qara bazar” 1 dolları 1,85 manata alıb 1,87 manata satır.

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, dolların ucuzlaşmasında ABŞ prezidenti Donald Tramp bir səbəbdən maraqlıdır: “Tramp maraqlıdır ki, dollar bir az ucuz olsun. O, Amerika istehsalçılarına şərait yaratmaq istəyir ki, ölkənin ixracı artsın. Bu, yalnız o halda mümkündür ki, gərək qiymətlər bir az aşağı olsun, hamı gəlib Amerikadan mal alsın. Buna görə dolları ucuzlaşdırmaq istəyir. Onun bu istəyi aydındır. İllər boyu Amerikada əsasən Çin, Yaponiya, hətta bəzən Avropa ilə valyuta müharibələri gedir. İstəyir onun valyutası bir az ucuz olsun ki, mallarını çox alsınlar, ixracı artsın. Bu halda iş yerləri artacaq. Heç kəs öz valyutasının çox baha olmasını istəmir. Amma bu halda da ölkədə inflyasiya başlaya bilər. Əgər pul çox olarsa, inflyasiya yarana bilər. Bu dəqiqə Tramp iqtisadi aktivliyi artırmaq istəyir, əsasən pulun gücünə etmək istəyir. Ölkədə pulların artmasını istəyir. Bu hal inflyasiyaya aparır. Buna görə Amerikanın Federal Ehtiyat Sistemi faiz dərəcəsini artıra bilər. Bu da artıq gözlənilir. Yəqin ki, növbəti iclasların birində bunu edəcək. Bundan sonra da dolların ucuzlaşması, məncə, gündəmdən çıxacaq. Dolların yaxında elə də ciddi ucuzlaşmasını gözləmirəm, əksinə, bahalaşacaq”.

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, Trampın dollarla bağlı açıqlamaları qlobal birjalarda dünya pulunu ucuzlaşdırıb:** “Trampın istəyi sadədir: ucuz dollar ABŞ üçün daha çox ixrac imkanları və az idxal deməkdir. Bununla həmçinin Birləşmiş Ştatlar əzəli iqtisad rəqiblərini o cümlədən Çin, Avropa Birliyi və Yaponiyanı da zəifl ətmək istəyir. Amma reallıq budur ki, dolları aparıcı valyutalara və eləcə də avroya nisbətən kəskin ucuzlaşdırmaq elə də asan deyil. ”İki ölkə" modelinə uyğun olaraq ABŞ-in iqtisadi rəqibləri də qabaqlayıcı tədbirlər həyata keçirəcəklər. Amma əgər



Tramp və onun komandası bu məsələdə israrlı olarsa, o zaman dolların digər aparıcı qlobal valyutalara nisbətən məzənnəsi mərhələli şəkildə azala bilər. Amma yenə də dolların aparıcı valyutalara nisbətən məzənnəsində kəskin azalma gözlənilmir. Bununla yanaşı, dolların əksər inkişaf etməkdə olan ölkələrin valyutalarına nisbətən dəyər itirməsi də inandırıcı deyil".

**Yeri gəlmişkən, Mərkəzi Bank fevral ayının 1-i tarixinə valyuta ehtiyatlarının həcmini açıqlayıb. Məlum olur ki, valyuta ehtiyatları yanvar ayı ərzində 8,9 faiz artaraq 4327,2 milyon dollara yüksəlib. Bununla da Mərkəzi Bank ehtiyatlarını bir il əvvəlki həddə çatdırıb. Ekspert Samir Əliyevin sözlərinə görə, uzun fasilədən sonra bir ayda bu səviyyədə artım təəccüb doğurmaya bilməzdi:** “Xüsusən də manatın tam üzən məzənnəyə keçdiyi elan edildiyi bir vaxtda bu məlumat ilk baxışdan belə bir fikri ortaya atır: manat tam üzən məzənnəyə keçdiyi üçün Mərkəzi Bankın valyuta ehtiyatı artdı. Bu fikri gücləndirmək üçün Rusiya və Qazaxıstan təcrübəsinə istinad etmək də olar. Çünki hər iki ölkədə milli valyutanın məzənnəsi sərbəst buraxıldıqdan sonra valyuta ehtiyatlarının azalması dayandı və artımla əvəz olundu. Qabaqcadan deyim ki, Mərkəzi Bankın valyuta ehtiyatlarının artmasının manatın tam üzən məzənnəyə keçidi ilə heç bir əlaqəsi yoxdur. Çünki Mərkəzi Bank ötən ilin sentyabrından valyuta bazarında satışı dayandırıb və ancaq fasilitator rolunu oynayır. Yəni onsuz da baş bankımız valyuta satmırdı. Yanvar ayında dollar dünya bazarında əsas valyutalara münasibətdə ucuzlaşıb. Valyuta ehtiyatına daxil edilən avro 2,7 faiz, funt sterlinq isə 1,9 faiz bahalaşıb. Bu valyutaların ehtiyatlarda həcmi barədə son məlumatlar yoxdur. Təxmin etmək olar ki, 4 milyard dollarlıq ehtiyatda onların payı ümumi məbləğin 10-15 faizi civarındadır. Deməli, məzənnə fərqinə görə artım 10-15 milyon dollar olub. Onda yerdə qalan vəsait haradan yaranıb? Ehtiyatların idarə edilməsindən o qədər artım əldə etmək mümkün deyil. Mərkəzi Bank bazardan da dollar almayıb. Ən azı indiki dövrdə bu mümkün deyil. Elə pul bazasının yanvar ayında 6,7 faiz azalaraq 7,3 milyard manata düşməsi monetar qurumun alış versiyasını istisna edir. Yeganə səbəb kimi Neft Fondunun ”makroiqtisadi sabitlik" məqsədilə nəzərdə tutulan 7,5 milyard manatın bir hissəsinin Mərkəzi Banka köçürülməsi ilə izah etmək olar. Bu məqsədlə Neft Fondu ayda orta hesabla 625 milyon manat köçürməlidir. Bu isə təxminən 342 milyon dollar *(yanvar üzrə orta məzənnə təxminən 1,83 USD/AZN)* edir. Məzənnə fərqini də nəzərə alsaq, təxminən 352-357 milyon dollar edir. Ehtiyatın həcmi də məhz bu həddə artıb. Mərkəzi Bank sonsuz olaraq Neft Fondunun vəsaiti hesabına ehtiyatlarını artırmayacaq. Çünki makroiqtisadi sabitliyin pulu na ehtiyac çoxdur. Həm xarici borcların, həm də valyuta bazarının bu vəsaitə ehtiyacı olacaq. Ona görə də növbəti aylarda Mərkəzi Bankın valyuta ehtiyatlarının yenidən azalması baş verəcək".

**Ekspert Natiq Cəfərli də qeyd edib ki, bir neçə gündür mediada, əsasən də televiziyalarda Mərkəzi Bankın ehtiyatlarının yanvar ayında 9 faizə qədər artmasını ciddi bir uğur kimi təqdim edirlər:** “Neft Fondundan il ərzində Mərkəzi Banka 7,5 milyard manat köçürüləcək, yanvar ayında ilk tranfert həyata keçirilib, məhz buna görə də ehtiyatlar artıb.

❑ Röya RƏFİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017



# Ermənistan prezidentinin "güzəştlərə hazırıq" bəyanatı - nağıl, yoxsa...

## Politoloq: "Sərkisyan "qətiyyətli" açıqlamalar verərkən Moskvadan cəsarətlənir"

**Ötən həftə Ermənistan prezidenti Serj Sərkisyan növbəti dəfə Dağlıq Qarabağla bağlı güzəştlərə hazır olduğunu bəyan etdi. Maraqlısı odur ki, erməni prezident sədri olduğu Respublika Partiyasının siyasi məktəbində çıxışı zamanı müharibə təhlükəsindən ehtiyatlandığını da etiraf edib və "dünyada qorxmaz insan yoxdur" deməklə özünə bəraət qazandırmağa çalışıb.**

S.Sərkisyan bir neçə ay bundan əvvəl çox uzağa gedərək hətta Azərbaycan paytaxtını işğalla hədələmişdi. Düzdür, o vaxt Sərkisyan Rusiyanın hədiyyəsi olan "İsgəndər" raket-komplekslərinin eyforiyası altında idi və davamlı təhdidlərlə çıxış edir, hətta danışıqların növbəti raundunun baş tutmaması üçün davamlı cəhdlər göstərirdi. Görünür, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında rəhbərliyi ələ keçirə bilmədiyi, üstəlik, Rusiya-Azərbaycan münasibətlərində gərginliyin yaranmasına nail olmadığı üçün Sərkisyan ehtiyatlı mövqe tutmağa çalışır. Onun "danışıqlardan və ya güzəştlərdən qorxmaq lazım deyil. Lakin təzyiq altında güzəştə getmək olmaz" sözləri həm də Azərbaycanın istənilən vaxt hərbi əməliyyatlara hazır olması barədə xəbərdarlıqlarına verilən ehtiyatlı reaksiyadır. Ermənistan prezidenti bununla həm də "konstruktiv" görünməyə cəhd göstərir.

Yeri gəlmişkən, aprel döyüşlərindən sonra da S.Sərkisyanın bənzər mövqeyinin şahidi olmuşduq. O zaman erməni prezident qarşılıqlı güzəştlərə hazır olduğunu deməklə vəziyyəti yumşaltmağa çalışmışdı. Hətta bir müddət sonra Rusiya nəşrləri Kremldəki yüksək vəzifə tutan diplomatik mənbəyə istinadən yazmışdı ki, Ermənistan rəhbərliyinin kəskin bəyanatlarına baxmayaraq, arxa Qarabağla bağlı razılıq əldə olunub. Hətta o zaman Dağlıq Qarabağın ətrafındakı ərazilərin böyük bir hissəsinin azad olunacağı xəbəri də yayıldı. Daha bir ay keçəndən sonra isə "Ermənistan cəmiyyəti güzəştlərə hazır deyil, Qarabağ heç vaxt Azərbaycanın tərkib hissəsi olmayacaq", "Dünya yığılsa da, Qarabağ ermənilərini Azərbaycanın tərkibində yaşamağa razı sala bilməz" kimi iddialarla çıxış etdi. İndi isə S.Sərkisyan yenə də "val"ı dəyişərək "biz güzəştlərə hazırıq, amma təzyiq altında olmamalıdır" deyir.

**"Sərkisyan ilk dəfə deyil ki, kompromislərə hazır olduğunu deyir. Amma ilk dəfədir ki, bu prosesin təzyiq yolu ilə deyil, ermənilərin iradəsi ilə həyata keçirilə biləcəyini bildirir. Hesab edirəm ki, Ermənistan prezidentinin açıqlamasına elə bu kontekstdən də yanaşmaq lazımdır". Politoloq Elçin Mirzəbəyli bunu "Yeni Müsavat"a açıqlaması zamanı dedi.**




**Ekspertin sözlərinə görə, Sərkisyanın bu açıqlamasının ilk hədəfi çox güman ki, Ermənistan cəmiyyətidir:** "Məlum olduğu kimi, hakim komandaya müxalifətdə dayanan Levon Ter-Petrosyanın Erməni Milli Konqresi seçkiyə "Sülh və Yaxın Qonşuluq" şüarı ilə gedir. Sərkisyan da guya kompromislərə gedə biləcəyini bəyan etməklə Ter-Petrosyanın sülh tərəfdarlarına ünvanlanmış mesajlarını kompensasiya etməyə çalışır. Sərkisyan yaxşı başa düşür ki, opponentinin sülh şüarları təkcə Ermənistan cəmiyyəti ilə bağlı deyil və yalnız Ermənistan cəmiyyətinə hesablanmayıb. Yəni burada xarici amillər də yer alıb. Bu səbəbdən işğalçı ölkənin başçısı təzyiqlərin onun mövqeyinə təsir göstərməyəcəyini vurğulayır. Ola bilsin ki, Serji belə bir açıqlama ilə çıxış etməyə vadar edən səbəblərdən biri də son zamanlar münaqişənin həllində əsas söz sahibinin Rusiya olması barədə fikirlərin ən yüksək səviyyədə və intensiv olaraq səsləndirilməsidir. Sərkisyan "kompromis" və "təzyiqin yolverilməzliyindən" söz açmaqla münaqişənin həllində guya Ermənistanın söz sahibi olduğunu qabartmaq istəyir".

**İşğalçı ölkənin başçısı Kremlin buyruq qulu olduğunu da etiraf edib və "Dağlıq Qarabağla bağlı Ermənistana təzyiq edəcək yeganə xarici qüvvə Rusiyadır" söyləyib. Güman etmək olar ki, əslində Sərkisyanı danışdıran Rusiya amilidir. O, Rusiya faktorunu xatırlatmaqla özünün ağasına mesaj verir, digər tərəfdən, Moskvanın planına əməl etməyə hazır olduğu görüntüsünü yaradır.**

**E.Mirzəbəyli də təsdiqləyir ki, ola bilsin bu tezis Sərkisyana Rusiyadan ötürülüb:** "Çünki Rusiyanın bu münaqişədə tərəf olduğu, daha öncə də qeyd etdiyim kimi, daha açıq şəkildə dilə gətirilməyə başlayıb. Məmkündür ki, yaxın zamanlarda müxtəlif beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Rusiyanın tərəf olduğu münaqişələrin siyahısına Dağlıq Qarabağ da əlavə olunsun. Yəni həqiqət rəsmi sənədlərdə də əksini tapsın. Bu isə nə Sərkisyanı, nə də onu himayə edənləri qane edə bilməz. Sərkisyanın açıqlaması manevr xarakterli olduğu, real gücə, iradəyə söykənmədiyi üçün onun reallaşmasından danışmağa da dəyməz".

**"Ermənistan prezidenti Serk Sərkisyan başını itirib, gah deyir ki, torpaqları boşaltmayacaq, indi də deyir ki, "güzəştlərə hazırıq". Ancaq onun nə "qətiyyəti", nə də qorxusu yürütdüyü siyasətlə bağlı deyil". Bunu isə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu söylədi. Onun fikrincə, əslində müstəqil siyasət Sərkisyanın əlində deyil:** "Birincisi, Ermənistan Rusiyanın vassalıdır və Sərkisyan Dağlıq Qarabağla bağlı "qətiyyətli" açıqlamalar verərkən, Moskvadan cəsarətlənir. Ancaq sabah Moskvadan fərqli əmr gəlsə Sərkisyanın "qətiyyətindən" əsər-əlamət qalmayacaq. Onun qorxusu isə Azərbaycanın cəbhə bölgəsində artan fəallığı ilə bağlıdır. Cəbhə bölgəsində növbəti lokal müharibə Sərkisyanın hakimiyyətinin sütunlarını daha çox laxladacaq, ona görə də Ermənistan prezidenti detalları bəlli olmayan "güzəştlərdən" danışır. Sərkisyanın qorxularının artması bizim əlimizdədir. Elə etməliyik ki, onun hakimiyyətdə keçirdiyi hər gün qorxularının artmasıyla yadda qalsın".

**S.Sərkisyanın "güzəştlərə hazırıq" bəyanatının fonunda Ermənistanın daha bir azərbaycanlıya "məhkəmə şousu" qurması da diqqət çəkir. Dilqəm Əsgərov və Şahbaz Quliyevi 3 ilə yaxındır azad etməyən düşmən indi də Talış kəndi istiqamətində erməni işğalçılarının əlinə keçən Zaur Hüseynzadəni Xankəndində mühakimə edir. E.Şahinoğlunun sözlərinə görə, Sərkisyan elə bilir ki, Dağlıq Qarabağdakı azərbaycanlı girovları geri qaytarmamaqla Azərbaycana hədə-qorxu gələ biləcək və ya bizi torpaqlarımızı azad etmək ruhundan məhrum edə biləcək:** "Tam əksinə, girov azərbaycanlılar amili bizi daha çox işğalçını cəzalandırmağa həvəsləndirir. Sərkisyan bunu anlayır. Məhz bunun nəticəsidir ki, hərbçimizin nəşini geri qaytarmaq məcburiyyətində qaldı. Şübhə etmirəm ki, bir gün Dağlıq Qarabağda girov saxladığı iki azərbaycanlını da bizə təhvil verəcək. Ancaq biz həmin günü gözləmədən işğalçıya təzyiqi artırmalıyıq. İşğalçı dövlətin prezidenti anlamalıdır ki, Dağlıq Qarabağ və ətraf rayonları işğal altında saxlamaq getdikcə onun ölkəsinə və bütün ermənilərə baha başa gəlir. Ölüm, səfalət və iqtisadi xaos Ermənistandan əksik deyil. Əgər işğalın davamı Azərbaycan üçün faciədirsə, torpaqlarımızı işğal edənlər üçün bu beşqat faciədir. Çünki torpaqları işğal etsələr də, rahat həyata qovuşmadılar. Azərbaycan və azərbaycanlılar kimi düşmən qazanıblar. Bölgədə ermənilərdən ən azı 5 dəfə çox olan azərbaycanlılar işğalçıları cəzalandırmaq fikrindən daşınmayıblar. Sərkisyanın və ölkəsinin xilası ancaq "güzəştlərə hazırıq" kəlməsinin qeyd-şərtsiz reallaşmasından keçir".

Ermənistan prezidenti növbəti nağıllarını danışdığı bir vaxtda Rusiya həmsədrlik missiyasına zidd şəkildə ikibaşlı oyununu oynamaqda davam edir. Belə ki, mətbuatda yayılan məlumatlara görə, Rusiyanın "Kavkaz Eksplorer" turizm şirkəti Qarabağa qanunsuz turlar təşkil edir. (axar.az) Hələ ki rəsmi Bakı məsələyə reaksiya verməyib. Azərbaycanın düşmənə sarsıdıcı zərbələri isə Qarabağa gəlmək istəyən turistləri öz fikrindən daşındırmaq üçün ən gözəl vasitədir...




# İşğalçıya qarşı möhtəşəm kiber-hücum

**Azərbaycanın "Anti-armenia Team" kiber-ordusu növbəti dəfə Ermənistan saytlarına qarşı kiber hücum əməliyyatı həyata keçirib. Publika.az xəbər verir ki, kiber-ordumuz 51 erməni saytını sıradan çıxararaq, həmin internet resurslarına "KARABAKH BELONGS TO AZERBAIJAN!" (Qarabağ Azərbaycana məxsusdur!), habelə Ermənistan tərəfindən Azərbaycana və xalqına qarşı yönəldilmiş işğalçılıq siyasəti barəsində faktlar yerləşdirib.**

"Anti-armenia Team" qrupunun yaydığı məlumatda deyilir ki, dağıdılan saytlarda həmçinin BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrin Ermənistan tərəfindən hələ də yerinə yetirilməməsi barədə qeyd də yerləşdirilib. Qrup bəyan edir ki, bu hücum əməliyyatı Xocalı soyqırımına həzırlıq xarakteri daşıyır və kiber-hücum əməliyyatları mütəmadi olaraq yerinə yetiriləcək.

Qeyd edək ki, "Anti-armenia Team" haker qrupu 19 oktyabr 2011-ci ildə bir qrup azərbaycanlı haker tərəfindən yaradılıb. Yaradıldığı gündən təyin olunmuş konsepsiyaya əsaslanaraq koordinasiyalı şəkildə fəaliyyət göstərməkdədir. İnternet hücumları öncədən təyin olunmuş şəkildə və Azərbaycan Respublikasının, Azərbaycan xalqının milli maraqlarına zidd olan yanlış informasiyalar yayan internet resursların fəaliyyətlərinə edilir. "Anti-armenia Team" haker qrupunun yeganə məqsədi Azərbaycanın informasiya təhlükəsizliyini təmin etmək, Azərbaycana və azərbaycanlılara qarşı törədilmiş soyqırımları, ədalətsizlikləri, erməni terrorizmini, erməni vəhşiliyini dünyaya çatdırmaq və konstitusiyamıza və Azərbaycanın milli maraqlarına zidd olan informasiyaları özündə əks etdirən internet resurslarının aradan qaldırılmasını təmin etmək, həmçinin informasiya təhlükəsizliyi ilə bağlı Azərbaycanın internet resurslarının idarə heyətinə təmənnasız köməklik göstərməkdən ibarətdir.

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

# Neft bahalaşdı, dollar ucuzlaşdı-sevinəkmi?

**Dünya bazarından Azərbaycan üçün şad xəbərlər gəlir. Dollar ucuzlaşır, neft isə bahalaşır. Belə ki, fevralın 6-da ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,19 dollar və ya 0,33% artaraq 57,00 dollar olub. Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,18 dollar və ya 0,33% artaraq 54,01 dollar təşkil edib. Neftin bahalaşması Azərbaycan və digər hasilatçı ölkələr üçün olduqca önəmli bir hadisədir. Digər tərəfdən, bir çox ölkələrin iqtisadiyyatını iflic edən dollar ucuzlaşmağa başlayıb. Moskva birjasında da dollar və avro zəifləyib. Rubl bahalaşan neftin və Mərkəzi Bankın İdarə Şurasının iclasının yekunlarının fonunda möhkəmlənib.**

## Ekspertlər hesab edir ki, neftin bahalaşması və dolların ucuzlaşması siyasi səbəbdən baş verdiyindən müvəqqəti xarakter daşıyır

Dolların məzənnəsi öncəki hərracın yekunları ilə müqayisədə 11,75 qəpik ucuzlaşaraq 59,3075 rubl təşkil edib. Avro isə 31 qəpik azalaraq 63,635 rubla düşüb. Türkiyədə də dolların qiyməti ucuzlaşıb.

Bəs görəsən, neftin ucuzlaşması və dolların bahalaşması səbəbindən böhran yaşayan Azərbaycan iqtisadiyyatı hazırda baş verən əks prosesdən dirçələcəkmi?

İqtisadçı ekspertlər sevinməyin erkən olduğunu deyirlər. Çünki həm neftin bahalaşmasına, həm də dolların ucuzlaşmasına səbəb olan amil iqtisadi deyil, məhz siyasidir. Bu isə prosesin davamlı olmayacağından və müvəqqəti xarakter daşıdığından xəbər verir.

**İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, neftin 60 dollar civarında qərar tutması Azərbaycan iqtisadiyyatında müəyyən qədər sabitlik yarada bilər:** "Bu, trendin davamlı olmasından və neftin hansı həddə qədər bahalaşmasından asılıdır. Bu bahalaşmanın səbəbi iqtisadi və ya neftin hasilatı ilə bağlı məsələlər deyil. İran-Amerika münasibətlərinin gərginləşməsi, Amerikanın İrana qarşı yenidən sanksiyalar tətbiq etməsi neft bazarında da bir psixoloji gərginlik yaratdı. Bu isə neftin 57 dollara qədər bahalaşmasına səbəb oldu. Bu artım davamlı olacaqsa, neftin qiyməti 60 dollar keçəcəksə, davamlı olaraq bu səviyyədə qalacaqsa, ölkənin gəlirlərinə müsbət təsir göstərəcək. Amma Azərbaycanın valyuta ilə bağlı problemi təkcə neftdən asılı deyil. Neft o həddə qədər bahalaşmalıdır ki, ölkədə bir valyuta bolluğu yaransın. Ancaq neftin o qədər bahalaşması real görünmür. Söhbət 90-100 dollardan gedir. Necə ki, əvvəlki illərdə neftin qiymətinin yüksək olduğu dövrdə Azərbaycanda valyuta problemi yox idi. İndi neftin o həddə qədər bahalaşması gözlənilmir. Əksinə, bazardakı psixoloji gərginlik yatdıqdan sonra fundamental məsələlər önə çıxır. Bu isə o deməkdir ki, neft ucuzlaşa bilər. İki gün öncə İranın neft naziri hasilatı 500 min barel artıracağını bəyan etdi. Amerikada neft buruqlarının sayı artıb, Kanadada hasilatın artım tempi yüksəlib. Hətta Amerikanın neft ixracatı ilə bağlı qərarı var ki, hasilatı artırmağı düşünür. Bütün bu xəbərlər bazara təsir etməyə başlasa, o zaman yenidən neftin qiyməti aşağı düşə bilər. Bu, trenddən asılı olacaq".




**Natiq Cəfərli onu da vurğuladı ki, Azərbaycanda valyuta qıtlığının səbəbi təkcə neftdən asılı deyil, ölkənin idxaldan asılılığı kifayət qədər yüksəkdir:** "Bəzi məhsul növləri üzrə 100 faizlik asılılığımız var. Məhz bu asılılığa görə də dollara tələbat böyükdür. Hələ ki başqa ciddi ixracat məhsulumuz yoxdur. İxracatımızın 90 faizindən çoxunu neft məhsulları və xam neft təşkil etdiyindən yaxın gələcəkdə bununla bağlı ciddi dəyişikliyin olacağını düşünmürəm. Amma bu durum bir müddət manatın sabit saxlanılması üçün yetərli ola bilər. Çünki Mərkəzi Bank da manatın məzənnəsini müəyyən həddə sabit saxlamağı düşünür. İndiki vəziyyətdə təqribən bir dollar iki manat koridorunda sabitləşdirmək istəyir. Lakin buna nə dərəcədə nail ola biləcəyini demək çətindir. Bu, Mərkəzi Bankın siyasətindən asılı olacaq".

**Ekspertin fikrincə, dünya bazarında dolların ucuzlaşması da siyasi səbəblərdən qaynaqlanır:** "Trampın müəyyən mənada səs-küyə səbəb olan qərarları və bu qərarların icrası ilə bağlı problemlərin yaşanması psixoloji olaraq dolların məzənnəsinə təsir göstərir və ucuzlaşmasına səbəb olur. 44 gündən sonra FED-in növbəti toplantısı olacaq. Bu toplantıda faiz artsa, dolları ucuzlaşdıran siyasi səbəblər arxa plana keçəcək. Dolların yenidən yüksəlməsi prosesi davamlı şəkildə olacaq. Bu proses iqtisadi səbəbdən qaynaqlanmadığı üçün davamlı olacağını düşünmürəm. ABŞ iqtsadiyyatının vəziyyəti və yeni hökumətin siyasəti budur ki, çoxlu sayda investisiya layihələri və təşviq proqramları həyata keçirsin. Bu da dolların likvitliyinin artmasına səbəb olacaq. İlin əvvəlində gözləntilər var idi ki, bir dollar bir avroya bərabər olsun. Ancaq ola bilər ki, bu, ilin birinci yarısında yox, ikinci yarısında baş versin. Hazırda dolların ucuzlaşması üçün iqtisadi səbəb yoxdur. ABŞ iqtisadiyyatının inkişaf tempi yalnız dünyada dolları bahalaşdıra bilər".

❑ **Nərgiz LİFTİYEVA**

# Köçkünlər üçün sayğaclaşma davam edir - əngəl yoxdur

## Məmurların razılığı yoxdur; prosesIə bağlı maneələr artıq aradan qalxıb…

**Məcburi köçkün ailələrinin yaşayış yerlərində sayğaclaşma prosesi davam etdirilir. Kommunal xidmət göstərən dövlət qurumlarından aldığımız məlumata görə, artıq bir həftədir ki, bu istiqamətdə qızğın işlər aparılır. Bildirdilər ki, məcburi köçkünlər artıq özləri sayğac qoyulmasını tələb edirlər.**

**"Azəriqaz" İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev** qəzetimizə bildirdi ki, sərəncama uyğun olaraq onların əməkdaşları sayğacların quraşdırılması prosesini bu gün də davam etdirirlər: "Bu prosesdə heç bir problem yoxdur. Belə ki, hər bir məcburi köçkün üçün fərdi qaydada sayğac quraşdırılması işi həyata keçirilir".

**"Azərsu" ASC-nin ictimaiyyətlə əlaqələr departamentinin rəisi Anar Cəbrayıllı da bildirdi ki, sayğac qurulması işləri davam etdirilir:** "İşlər fərdi qaydada aparılır, yəni məcburi köçkünlər var ki, həyət evində, hansısa binada yaşayırlar. Onlara sayğac qurulur. Məcburi köçkünlərdən bizə xeyli sayda müraciətlər olunur. Şəxsən mənim özümə hər gün 5-10 müraciət daxil olur ki, biz də sayğac istəyirik. Çalışırıq ki, onların hamısının yaşayış yerlərini sayğacla təmin edək. Ramana qəsəbəsində Şuşa şəhərciyindəki bina evlərində işlər artıq tamamilə başa çatıb. Orada təxminən 540 sayğac quraşdırdıq. İşlərimiz davam etdirilir və digər rayonların ərazilərində də fərdi qaydada məskunlaşan məcburi köçkünlər sayğacla təmin olunurlar. Yataqxanalarla da bağlı bizim araşdırmamız gedir ki, orada necə işləyəcəyik. Şəxsən biz hələ heç bir problemlə üzləşməmişik. Əksinə, məcburi köçkünlər özləri daha çox maraq göstərirlər ki, sayğacla təmin olunsunlar".



Onu da qeyd edək ki, dünən AzadlıqRadiosu məlumat yayıb ki, Nərimanov rayonu, Malik Məmmədov küçəsi 4-də (Təfəkkür Universitetinin yaxınlığı) yataqxanaya gələn "Azərişıq" ASC-nin işçiləri çarəsiz duruma düşüblər. Məlumatda qeyd olunur ki, onlar yataqxana binasında sayğac quraşdırmağa çalışsalar da, saatlarla köçkünlər dirəniş göstərib buna imkan verməyiblər. Sayğac quraşdıranlar binaya yaxın buraxılmayıb.

**Məsələ ilə bağlı məlumat almaq üçün "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevlə əlaqə saxladıq. T. Mustafayev bildirdi ki, yayılan xəbərlər tamamilə əsassızdır:** "İşlər çox yüksək səviyyədə davam etdirilir. Aksiya ilə bağlı yayılan məlumatların hamısı şayiədir. Bildirirəm ki, sayğaclaşma hazırda da davam etdirilir. Başlayandan bu günə qədər məcburi köçkün ailələrinin mənzillərinə 6300 ədəd sayğac quraşdırmışıq. Pirşağıda, Yasamalda, Binəqədidə və ümumilikdə qaçqın yataqxanalarındakı bütün yerlərdə sayğac quraşdırılması davam etdirilir. Heç bir problem yoxdur. Məcburi köçkünlər əməkdaşlarımızla söhbət aparırlar. Ümumi məlumat alırlar. Yəni hər şey tam qaydasında və normal şəkildə davam etdirilir. Biz öz vəzifəmizi icra edirik. Heç bir problem də yoxdur. Sakinlər, əksinə, deyirlər ki, sayğacları quraşdırın".

Xatırladaq ki, prezident İlham Əliyev yanvarın 23-də "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" fərman imzalayıb. Həmin sənədə əsasən, məcburi köçkünlərə, onlara bərabər tutulan şəxslərə yemək xərci müavinəti, kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər dayandırılır. Bunun əvəzinə onlara hər ay 36 manat məbləğində vahid aylıq müavinət veriləcək.

❑ **Əli RAİS**

# İslam Oyunlarında bahalı müğənnilər iştirak etməyəcək

## "Qiyməti 30 minə qədər olan müğənnilər Bakıya gələ bilər"

**"Deyəsən, xalqımız ulduzları çox sevir. Ancaq belə suallar verirsiniz".**



"Report" xəbər verir ki, bunu gənclər və idman naziri Azad Rəhimov "Bakı 2017" İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində əcnəbi müğənnilərin mümkün iştirakı barədə sualı cavablandırarkən deyib.

O bildirib ki, mayın 12-də keçiriləcək mərasimdə hər hansı yerli və xarici ulduz olmayacaq: "Bu, elə səpkidə şoudur ki, orada oxumaq olmayacaq. Amma bağlanış mərasimində yerli ulduzlar ola bilər".

Nazir müğənni Ledi Qaqaya "Bakı 2015" I Avropa Oyunlarının Açılış Mərasimində 1 milyon dollar verildiyinə dair fikirlərə də münasibət bildirib: "Həmin ulduzların müqavilələrində qeyd olunur ki, məbləğ açıqlanmır. Ledi Qaqanın qonorarını açıqlaya bilmərəm. Kommersiya sirridir. Qiyməti 30 minə qədər olan müğənnilər Bakıya gələ bilər".

Qeyd edək ki, IV İslam Həmrəyliyi 12 - 22 mayda keçiriləcək.

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

# 10 manatlıq ət yeməyi əvəzinə 88 qəpiyə nahar...

## Qida rasionumuzu dəyişməklə həm cibimiz, həm də canımız fayda görə bilər

**Azərbaycanlıların süfrəsini yağlı ət yeməkləri, kərə yağı olmadan təsəvvür etmək çətindir. Ona görə də demək olar ki, əksəriyyət ailələr həftədə ən azı iki dəfə ət yeməyi yeyir. Təsadüfi deyil ki, Azərbaycanda hər il adambaşına 19.4 kiloqram ət yeyilir. Bunu ötən il Birləşmiş Millətlər Təşkilatı ölkələrin illik ortalama ət istehlak miqdarını açıqlayarkən bildirib.**



Hazırda azərbaycanlıların süfrəsinin vaz keçilməzi olan ətin və digər mühüm ərzaq məhsullarının qiymətində ciddi artım müşahidə edilir. Məhz buna görə də əhali zəruri ərzaq məhsullarını ala bilməməkdən gileylənir və qida rasionundan bir sıra qidaları çıxartmaq məcburiyyətində qalıb. Eyni zamanda bahalaşma ət yeməklərinin sayını da azaldıb. Azərbaycanlılar ta qədimdən ətə meylli bir xalq olub. Azərbaycandan fərqli olaraq digər Avropa ölkələrinə diqqət etsək görərik ki, onlar ətli yox, daha çox tərəvəzli qidalara üstünlük verirlər. Hansı ki, biz bu qidaları elə də sevmir, göyərtilər, bir sıra tərəvəzlər almır və ya alırıqsa da işlətmir, soyuducumuzda xarab edib atırıq. Bir çox insanlar ət yeməyi olmadan doyumluq hissinin olmadığını deyirlər. Halbuki ətin çox qəbulu insan səhhəti üçün zərərlidir. Ətin tərkibində xolestorolun miqdarı yüksək olur. Məhz bu səbəbdən də ürək-damar və qan təzyiqindən əziyyət çəkən xəstələrə çox az miqdarda ət yemək tövsiyə edilir. Xüsusilə də qan təzyiqi yüksək olan kişilər qidalanma zamanı ətdən az istifadə etməlidirlər. Həkimlər heyvanların daxili orqanlarını yeməyi də məsləhət görürlər. Qoyun və inəklərin böyrək, dalaq, ciyər kimi daxili orqanlarında mikrobların miqdarı daha çoxdur. Həkimlərin sözlərinə görə, həftədə yalnız bir dəfə ət yemək məsləhətdir. Ət yağlardan təmizləndikdən sonra, qaynadılaraq bişirilməlidir. Ət kartof qızartması ilə deyil, plov və ya səbzələrlə yeyilməlidir. Avstraliya mütəxəssislərinin apardığı araşdırmalar nəticəsində isə məlum olub ki, mal və qoyun əti insan orqanizmi üçün çox zərərlidir. Araşdırma zamanı 7 min nəfər üzərində təcrübə aparılıb. Nəticədə məlum olub ki, 8-10 il müddətində həftədə bir neçə dəfə ət yeyən adamların xəstəliyə tutulma ehtimalı ət yeməyən adamlara nisbətən 47 faiz daha yüksəkdir. Mütəxəssislərin fikrincə, ətin insan orqanizminə verdiyi zərərlərin qarşıçısını almaq üçün meyvə və səbzələrdən istifadə etmək lazımdır.

İnsan qidaları üzərində araşdırma aparan həkimlərin sözlərinə görə, revmatizm, xərçəng, vərəm və bir çox mədə-bağırsaq xəstəliklərinin yaranmasında ət önəmli rol oynayır. Ət insan orqanizmində bir çox hüceyrələri məhv edir, bağırsaqlarda bir çox mikrobların yaranmasına səbəb olur. Ona görə də nə qədər ətdən uzaq olsaq bir o qədər yaxşıdır.

Qeyd edək ki, bir növ ət yeməyi 4 nəfərlik bir ailəyə ən azı 15-20 manata başa gəlir. Ancaq əgər istəsəniz siz hətta 1-2 manata şam yeməyini təşkil edə bilərsiniz. Məsələn, kələm, turp, nanə, göyərti, balqabaq kimi ərzaqlar alıb 2-3 dəfə yemək bişirə bilərsiniz. Məsələn, siz dəstəsi 20 qəpikdən 3 dəstə göyərti, bir dənəsi 14 qəpiyə 2 yumurta alıb kükü bişirə bilərsiniz. Nahar üçün hazırlayacağınız bu yemək sizə 88 qəpiyə başa gələcək. Qeyd edək ki, yuxarıda sadaladığımız ərzaqlar ətdən dəfələrlə ucuz olsa da, faydalılığı ətin faydasından dəfələrlə üstündür. Amerika alimləri hesab edirlər ki, gün ərzində göy qurşağının rənglərinə uyğun olaraq 7 rəngdə məhsullarla qidalanmalısınız. Ən çox üstünlüyü isə göyərtiyə verin. Çünki o, bitki antioksidantları ilə zəngindir. Hüceyrələri xərçəngin əmələ gəlməsinə şəraiti yaradan azad radikallardan qoruyur. Məsələn, cəfərinin tərkibində çoxlu kalium, kalsium, dəmir, fosfor və C vitamini var ki, bu da orqanizmin qoruyucu gücünü möhkəmləndirir, görmə qabiliyyətini, dərinin rəngini, vəziyyətini yaxşılaşdırır, həm də sidikqovucu effektə malikdir. Şüyüd C vitamini, kalium, dəmirlə zəngindir. Qanazlığı, hipertoniya, mədə-bağırsaq pozğunluqları kimi xəstəliklərdə faydalıdır. Keşniş B və PP qrup vitaminləri ilə zəngindir. Sinir sistemini stressdən qoruyur, dərini təravətləndirir, ürək və bağırsağın yaxşı işləməsinə kömək edir. Güclü antioksidantdır. Daha bir ucuz və faydalı ərzaq isə kələmdir. Kələmin kilosu 80 qəpik, 1 manat arası satılır. Kələm C vitamini ilə xüsusilə zəngindir.

Bu vitaminin miqdarı kələmdə sitrus meyvələrdə olandan da çoxdur. C vitamini immun sisteminə müsbət təsir edir, damarların divarlarını bərkidir, iştahanı artırır. C vitamini həmçinin təbii antioksidantdır. O, orqanizmdə gedən qocalma prosesləri ilə mübarizə aparır. Bundan əlavə, kələmdə nadir U vitamini də var. Bu möcüzəli vitamin selikli qişalarda olan zədələnmələri bərpa edir. Məhz bu səbəbdən kələm və kələm şirəsi mədə və 12 barmaq bağırsağı xorası və erroziyaları olan insanlar üçün çox xeyirlidir. Kələm həmçinin K, PP, B qrupu vitaminlər və kalsium, kalium, dəmir, sink, fosfor, yod kimi mineral maddələrlə zəngindir. Təzə kələm (misal üçün, kələm salatları) qəbizliklə mübarizədə ən yaxşı və sınanmış vasitələrdən biridir. Kələm yodla xüsusilə zəngindir. Bu mikroelement beyinin və qalxanvari vəzin normal fəaliyyəti üçün olduqca vacibdir. Kələmi çiy vəziyyətdə müxtəlif salatların tərkibində qəbul edin. Belə salatlar əsl vitamin mənbəyidir. Bişirə biləcəyiniz növbəti faydalı və sərfəli qida kilosu 40 qəpiyə satılan balqabaqdır. Balqabaq çox zəngin mineral tərkibə malikdir. Burada C, E, PP, K, B qrupu vitaminləri, mineral və mikroelementlər (dəmir, mis, kalium, ftor, sink, kalsium), fruktoza, pektin maddələri var. Belə zəngin tərkib balqabağı insanın müxtəlif orqan və sistemləri üçün çox faydalı edir. Balqabaq həzm sistemi üçün çox faydalıdır. Qaraciyər, öd üçün balqabaq xüsusilə faydalıdır - bu orqanları təmizləyir, fəaliyyətini yaxşılaşdırır. Balqabaq qaraciyər sirrozu və iltihabları zamanı müalicəvi vasitə kimi istifadə olunur. Balqabaq və balqabaq şirəsi sinir və ürək-damar sisteminə müsbət təsir edir, qan damarlarını təmizləyir və möhkəmləndirir, nevroz və yuxusuzluqla mübarizə edir. Balqabaq orqanizmi ödemlərdən azad edir, böyrəklərin funksiyasını yaxşılaşdırır.

Pektin maddələri ilə zəngin olan balqabaq orqanizmi toksinlərdən və digər ziyanlı maddələrdən də təmizləyir, artıq xolesterini orqanizmdən çıxarır. Hamiləlik zamanı balqabaq toksikozla mübarizə etməyə kömək edir.

❑ **Günel MANAFLI**



# Hökumət növbəti bahalaşmaya gedəcəkmi...

## Vüqar Bayramov: "Tarif Şurası bu kimi qərarlar qəbul edən zaman ictimai müzakirə aparılmır"

**Ötən ilin sonunda Tarif Şurasının qərarı ilə qazın və elektrik enerjisinin qiymətinin artırılması uzun müddət cəmiyyətdə narazılığa və gərginliyə səbəb oldu. Demək olar ki, həm mətbuatın, həm də cəmiyyətin gündəmində bir nömrəli məsələ bahalaşma xəbərləri idi. Lakin artıq bu qərarın üzərindən bir aydan artıq vaxt keçib, əvvəlki bahalaşma ajiotajı səngiyib. Əvəzində isə qazın və elektrik enerjisinin bahalaşmasından təsirlənən sahələrdə qiymət artımları davam edir. Elektrik enerjisinin bahalaşması yerli istehsal olan məhsullarda qiymət artımına səbəb olub. Qazın bahalaşması isə istixanalarda yetişdirilən kənd təsərrüfatı məhsullarının iki qat qiymətə satılmasına gətirib çıxarıb. Lakin cəmiyyətdəki səssizlik onu göstərir ki, əhalidə etiraz hissi və kəskin narazılıq yoxdur.**

Bəs görəsən, bu durum qiymət artımı üçün növbəsini gözləyən digər sahələrdə də bahalaşmaya səbəb ola bilərmi? Hazırda əhalini ən çox narahat edən gözlənti Tarif Şurası tərəfindən tənzimlənən Aİ 92 markalı benzinin qiymətinin, eləcə də ictimai nəqliyyatda və metroda gediş haqlarının bahalaşmasıdır.

Ekspertlər birmənalı olaraq sözügedən qiymət artımlarını arzuolunmaz hesab edirlər.

**İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Tarif Şurasının necə qərar verəcəyini öncədən müəyyənləşdirmək mümkün olmadığından iqtisadçılar bu haqda proqnoz verməkdə çətinlik çəkirlər: "Benzinin, nəqliyyatın və sairin qiymətində artım olub-olmayacağını demək bir qədər çətindir. Çünki söhbət tənzimlənən xidmətlərin və məhsulların qiymətlərindən gedir. Tənzimlənən qiymətlərlə bağlı isə Tarif Şurası qərar çıxarır. Çox təəssüf ki, son zamanlar Tarif Şurası bu kimi qərarlar qəbul edən zaman demək olar ki, ictimai müzakirə aparılmır. Əksinə, yalnız qərarı qəbul etdikdən sonra bu haqda cəmiyyətə məlumat verilir".

**İstehlak bazarındakı qiymət artımlarına gəlincə, iqtisadçı bunun dolların məzənnəsi ilə bağlı olduğunu qeyd etdi:** "2017-ci ildə istehlak bazarında isə qiymət artımları gözlənilir, bu, birbaşa manatın dollara nisbətən məzənnəsinin bahalaşmasında, asılı olacaq. Əvvəlki təcrübələr də göstərir ki, dolların manata nisbətən məzənnəsinin yüksəlməsi nəticə etibarilə qiymətlərin yüksəlməsinə gətirib çıxara bilər. Çünki ölkədə istehlak edilən məhsulların əhəmiyyətli hissəsi xaricdən idxal edilir. Nəticə etibarilə dolların məzənnəsində dəyişiklik baş verən zaman qiymət artımlarına gətirib çıxarır".

**Vüqar Bayramov vurğuladı ki, indiki məqamda xüsusilə Aİ 92 markalı benzinin qiymətinin artırılması arzuolunan deyil:** "Əgər benzinin qiyməti artarsa, bu, nəticə etibarilə digər istehlak mallarının qiymətinin də artmasına gətirib çıxara bilər. Aİ 92 markalı benzinin qiymətinin artması nəqliyyatın qiymətinin artmasına səbəb ola bilər. Çünki ictimai nəqliyyat Aİ 92 markalı benzin və dizellə işləyir. Bu zaman aqrar məhsulların da qiyməti arta bilər. Kənd təsərrüfatının işi yanacaqdan asılı olduğu üçün benzinin bahalaşması aqrar məhsulların da qiymətinin artmasına səbəb ola bilər. Tarif Şurası tənzimlənən qiymətlərlə bağlı qərar qəbul etmək hüququna malikdir. Belə artımlar zamanı ictimai müzakirələr aparılmadığından hansı xidmət və məhsulların bahalaşmasını öncədən müəyyən etmək çətindir. Amma sözsüz ki, indiki məqamda Aİ 92 markalı benzinin qiymətinin artırılması arzu olunmur".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017

# Daha bir küçədə nəqliyyatın hərəkəti məhdudlaşdırılıb



**Bakı şəhəri Yasamal rayonunun "Sovetski" kimi tanınan ərazidə çəkilən yeni kanalizasiya xətlərinin birləşdirilərək əsas kollektora yönəldilməsini təmin etmək üçün Füzuli küçəsinin Şıxəli Qurbanov küçəsi ilə kəsişməsində qazıntı işlərinə başlanılıb.**

"Azəravtoyol" ASC-dən "APA-Economics"ə verilən məlumata görə, bu məqsədlə Füzuli küçəsindən dairəyə doğru çıxış hissə müvəqqəti olaraq bağlanıb. Həmin istiqamətdən gələn nəqliyyat vasitələri alternativ olaraq İslam Səfərli küçəsinə yönəldilib. Sürücülər həmin yoldan istifadə edərək yenidən Şıxəli Qurbanov küçəsinə çıxa bilərlər.

Aparılan təmir-tikinti işləri zamanı ərazidə yarana biləcək sıxlığın qarşısını almaq məqsədilə hərəkətdə daha bir müvəqqəti dəyişiklik edilib. Belə ki, Azərbaycan prospektindən gələn nəqliyyat vasitələrinin dairəyə daxil olaraq Mirzəağa Əliyev küçəsinə doğru hərəkəti yalnız Şıxəli Qurbanov küçəsindən istifadə edib geriyə dönməklə mümkündür. Sürücülərin Füzuli meydanında hərəkətdə olarkən diqqətli olmaqları tövsiyə olunur.

Sözügedən ərazidə işlərin 1 həftə ərzində davam etdirilərək yekunlaşdırılması nəzərdə tutulub.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## "Nar" sərfəli rominq kampaniyasını təqdim edir




**"Şərq" kampaniyası daxilində təqdim olunan rominq paketlərindən yararlanmaqla "Nar" abunəçiləri Birləşmiş Ərəb Əmirliklərində olduqları zaman davamlı ünsiyyətdə qalmaq və rominq xərcləri barədə düşünməmək imkanı əldə edirlər.**

**"Şərq-5" paketinə həm gələn zənglər üçün 5 dəqiqə, həm də çıxan zənglər üçün 5 dəqiqə və 500 MB internet trafiki daxildir. Paketin istifadə müddəti sifariş günündən etibarən 3 gündür. Gələn/çıxan dəqiqələr və internet trafik paketin istifadə müddəti başa çatmamış bitərsə, hesablamanın aparılma qaydası belədir: çıxan zənglərin dəqiqəsi - 1,50 AZN, gələn zənglərin dəqiqəsi - 0,25 AZN, 1 MB internet trafikin qiyməti - 1,50 AZN.**

**"Şərq-15" paketinə həm gələn zənglər üçün 15 dəqiqə, həm də çıxan zənglər üçün 15 dəqiqə və 1500 MB internet trafiki daxildir. Paketin istifadə müddəti sifariş günündən etibarən 30 gündür. Gələn/çıxan dəqiqələr və internet trafik paketin istifadə müddəti başa çatmamış bitərsə, hesablamanın aparılma qaydası belədir: çıxan zənglərin dəqiqəsi - 1,50 AZN, gələn zənglərin dəqiqəsi - 0,25 AZN, 1 MB internet trafikin qiyməti - 1,50 AZN.**

**"Şərq" paketlərindən birini hələ Azərbaycanda ikən və ya Birləşmiş Ərəb Əmirliklərinə çatmamışdan öncə də sifariş etmək mümkündür. "Şərq-5" paketinə qoşulmaq üçün +105 yazıb 777 qısa nömrəsinə SMS göndərmək və ya telefonun ekranında *777#105#YES kodunu yığmaq, "Şərq-15" paketinin sifarişi üçün isə +115 yazıb 777 qısa nömrəsinə SMS göndərmək və ya telefonun ekranında *777#115#YES kodunu yığmaq kifayətdir.**

**Qeyd edək ki, abunəçilər rominqdə bir ilk olan bu sərfəli paketdən istədikləri sayda sifariş edə bilərlər. Bu zaman dəqiqə və internet trafikin istifadəsinin öncəliyi sifariş tarixinə əsasən verilir. Təklifdən "DU" mobil operatorunun şəbəkəsinə qoşulan öncədən və sonradan ödənişli bütün "Nar" abunəçiləri yararlana bilərlər.**

**"Nar" rominq xidməti barədə daha əraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**



## Bakıda vulkan püskürdü

**Bakıda vulkan püskürüb. APA-nın məlumatına görə, hadisə paytaxtın Qaradağ rayonu ərazisində qeydə alınıb. Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun Palçıq vulkanizmi şöbəsinin müdiri Adil Əliyev APA-ya bildirib ki, hazırda vulkanın harada baş verməsi və nə qədər ərazini əhatə etməsi ilə bağlı məlumat yoxdur.**

A.Əliyev qeyd edib ki, əraziyə baxış keçirdikdən sonra palçıq vulkanının ərazisi, başvermə səbəbləri məlum olacaq.

## Bakıda qadın 6 nəfərə 387 min manat "atıb"

**Bakıda külli miqdarda dələduzluq faktının üstü açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, dələduzluq etməkdə şübhəli bilinən Bakı şəhər sakini İradə Cəfərovanın ətrafında Xətai Rayon Polis İdarəsi əməkdaşları tərəfindən aparılan əməliyyat tədbirləri ilə onun 2014-cü ilin avqust ayından 2016-cı ilin fevral ayınadək olan müddətdə paytaxt sakinləri olan 6 nəfəri aldadaraq ümumilikdə onlardan 387.000 manat pul aldığı müəyyən edilib.**

## Paytaxtda 64 yaşlı kişi öldürüldü

**Bakıda qətl törədilib. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayonun Ağa Nemətulla küçəsində yaşayan 1953-cü il təvəllüdlü Firudin Hüseynovun meyiti yaşadığı evdə tapılıb. O, başından küt alətlə vurularaq öldürülüb.**

Baş vermiş hadisə ilə bağlı əməliyyat-istintaq qrupu yaradılıb.

Hazırda hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək tutulması istiqamətində tədbirlər davam etdirilir.

## Salyanda 3 yaşlı uşaq su çalasına düşərək boğulub

**Salyanda azyaşlı faciəli şəkildə ölüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hadisə Salyan rayonunun Pambıqkənd kəndində qeydə alınıb. Orada yaşayan 3 yaşlı Əli Mahmudov həyətlərindəki su çalasına düşərək boğulub.**

Faktla bağlı araşdırma aparılır.

## 48 yaşlı qadın dəm qazından boğulub öldü

**Bakıda dəm qazı daha bir nəfərin həyatına son qoyub. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Biləcəri qəsəbəsi, Məlik Aslanov küçəsi döngə 1 ünvanında qeydə alınıb. Orada yaşayan 48 yaşlı Elmira İsmibala qızı Seyidova yaşadığı evdə dəm qazından boğularaq ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Keçmiş məhkum silah və narkotiklə yaxalandı

**Şirvanda keçmiş məhkum silah və narkotiklə saxlanılıb. Daxili İşlər Nazirliyindən (DİN) verilən məlumata görə, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Şirvan ŞPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş Samir Qurbanəliyevdən "TT" markalı tapança, 2 ədəd patron darağı, 9 ədəd patron və 3,394 qram heroin götürülüb.**

Faktla bağlı araşdırma aparılır.

## Balıq ovu və mühafizəsi qaydalarının layihəsi Nazirlər Kabinetinə təqdim edilib

**Balıqçılıqla bağlı bir neçə normativ hüquqi sənədin layihələri hazırlanıb. APA-nın xəbərinə görə, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) 2016-cı il ərzində su hövzələrində bioloji resursların artırılması və mühafizəsi sahəsində görülmüş işlərin hesabatında bildirilib.**

Hesabatda qeyd olunub ki, "Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları", "Balıq və digər su bioresurslarının ovu və mühafizəsi Qaydaları", "Akvakulturanın həyata keçirilməsi Qaydası", "Təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması Qaydaları", "Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması Qaydaları", "Balıqçılıq təsərrüfatı ekspertizasının aparılması Qaydası", "Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları", "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında" Əsasnamə və "Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması Qaydası"nın layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib.

Azərbaycan Prezidentinin 23 iyun 2016-cı il tarixli 962 nömrəli fərmanı ilə "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında Əsasnamə" təsdiq edilib. Digər layihə sənədləri aidiyyəti dövlət orqanları ilə razılaşdırılma mərhələsindədir.

YENİ MÜSAVAT
N 27 (6641) 7 fevral 2017



# "İntihar kabusu" ölkəmizin üzərindən çəkilmir

## Elnur Rüstəmov: "İntihar edənlər arasında iqtisadi vəziyyəti yaxşı olan insanlar var"
## Əhməd Qəşəmoğlu: "Biz konkret əməli iş görməliyik ki, əhalidə sabaha inam hissi artsın"

**Maştağa qəsəbə sakini 57 yaşlı Yaşar Əliyev yaşadığı evin həyətində özünü asıb. Ağdam rayonundan olan məcburi köçkün, 61 yaşlı Səidə Eminova yaşadığı binanın 7-ci mərtəbəsindən özünü atıb. Tovuzda 16 yaşlı qız intihar edib. Şəkidə iki uşaq atası intihar edib. Bərdədə bir qadın intihar edib. Şirvanda isə 27 yaşlı gənc özünü asıb.**

Bu son iki gündə baş verən və mətbuata yayılan intihar xəbərləridir. Demək olar ki, hər gün 5-6 intihar xəbərləri ilə rastlaşırıq. Bu isə intihar hadisələrinin sayının gün keçdikcə artan tendensiya ilə davam etdiyini deməyə əsas verir. İntihar edən şəxslərin 90 faizi uzun zaman depressiyada olub. Depressiyada olan şəxslərin 15 faizi intihara cəhd nəticəsində həyatlarını itirir. Depressiyada olan kişilərin intihar nəticəsində həyatını itirmə nisbəti qadınlara görə daha yüksəkdir. Problemləri həll edə bilməmə, stress və ümidsizlik hissləri ilə intiharın yaxın əlaqəsi olduğu göstərilir. Əvvəllər intihara səbəb maddi sıxıntıdan irəli gəlirdisə, baş verən araşdırmalar onu göstərir ki, artıq maddi sıxıntı yaşamayan bir də özünə qəsd edir. Tanınmış psixoloq Dəyanət Rzayevin intiharı buna bariz nümunədir. Ümumiyyətlə, son vaxtlar istər tanınmışlar, istərsə də sadə vətəndaşlar arasında pessimizm yüksək həddə çatıb. Facebook və digər sosial şəbəkələrdə yazılan statuslarda əvvəllər mübarizə, optimizm sezilirdisə, indi bunun tam əksidir. İnsanlarda bir ümidsizlik, həyata qarşı inamsızlıq, küskünlük yaranıb ki, hər gün eşitdiyimiz, oxuduğumuz intihar xəbərləri də məhz bunun nəticəsidir. Psixoloqlar, sosioloqlar bununla bağlı dəfələrlə həyəcan təbili çalsalar da müsbətə doğru heç bir dəyişiklik baş vermir. Bəs nə etməliyik ki, Azərbaycanın başı üzərində fırlanan bu "intihar mələyi" uzaqlaşsın?

**Psixoloq Elnur Rüstəmov son zamanlar intiharın sosial şəbəkələr üzərindən bir zarafata çevrilməyə başladığını dedi:** "İntihar edənlər arasında iqtisadi vəziyyəti yaxşı olan insanlar var. Məsələnin kökündə o dayanır ki, intihar özü bir situasiyaya çevrilib. Buna siyasi don geyindirirlər. Düzdür, söhbət böhrandan, yeni həyat tərzinə uyğunlaşa bilməməkdən gedir. İndi daha çox çalışmaq, çaba göstərmək, həyata tutunmaq lazımdır. Son dönəmlərdə intihar bir zarafata çevrilməyə başlayıb. Sosial şəbəkələr üzərindən bir şou düzəltməyə başlayıblar ki, filankəs status yazdı, özünü öldürmək istəyir, digərləri də onu yolundan çəkindirmək istəyir və sairə. Əslində bu pis bir zarafatdır. Başa düşürəm, buna pozitiv nöqteyi-nəzərdən yanaşmaq istəyirlər. Amma bu ziyan verə bilər. Çünki bütün insanların psixologiyası eyni deyil. Bu gün informasiya əsrində yaşayırıq. Evdə 5 nəfər ailə üzvü varsa, hərənin əlində bir telefon oturub danışır və ya oturub seriala baxır. Söhbət ondan gedir ki, insanlar arasında canlı ünsiyyət itdikcə emosional bağ da itməyə başlayır. İnsan insana yadlaşır, uzaqlaşır. Artıq bacı və qardaş, əmi oğlanları, xala oğlanları arasında bir uzaqlaşma baş verir. Bu da informasiya əsrinin yaratdığı problemdir. İnkişaf etmiş ölkələrdə, Amerikada belə qeyd edilir ki, bir insan normal yaşamaq üçün gündə 8 saat işləməlidir və işini də sevməlidir. Bu, tamamilə fərqli bir dönəmdir. Biz psixoloji cəhətdən buna hazırlaşmalıyıq. İstədik-istəmədik, bu bizim dəyər sistemimizə təsir göstərir. Bu gün bizim dəyərlərə basqılar var. Bu gün bizim uşaqlar və yeniyetmələrdəki problemlərə baxın. İstər nevroloji, istərsə də psixoloji problemlər olsun. Bəzən insanın şəxsi problemi olur. Ola bilər ailədə hər şey qaydasındadır, amma onun şəxsi həyatında, ya dostları, ya məktəb yoldaşları ilə problemləri var. Diqqətli olmaq lazımdır. İnsan bütün hallarda həyata tutunmalıdır. Yeganə qorxu ölüm qorxusudur ki, bütün qayğıları arxada qoyur. Bu məqamı nəzərə almaq lazımdır".

**Psixoloq intihar göstəricilərinin bütün dünyada artdığını dedi:** "İstər sosial mediada, istərsə də kütləvi informasiya vasitələrində bu intiharlar işıqlandırılır və artmağa başlayır. Problem azalmır ki, artır. Bunu nəzərə almalıyıq. Bu, zarafat bir məsələ deyil. Biz az qala hər səhərimizi intihar xəbəri ilə açırıq. İnsanlar özləri də nə qədər neqativ olsalar, o qədər neqativ hallar baş verəcək. İntihar göstəriciləri bütün dünyada artıb. Əsas səbəb kimi də depressiya və stress göstərilir ki, bunun üzərindən bir araşdırma aparmaq lazımdır. Şou düzəltmək lazım deyil. Nəzərə almaq lazımdır ki, həssas insanlarımız var. Onlar fərqində olmadan bu addımı ata bilərlər".

**Sosioloq Əhməd Qəşəmoğlu bildirdi ki, intihar hallarının qarşısını almaq üçün fəaliyyət proqramı hazırlanmalıdır:** "Əhali arasında ən vacib məsələlərdən biri sabaha inamdır. Yəni gənc insanda sabaha inam olmayanda onda depressiv hallar çoxalır. Belə bir məşhur misal var ki, ən son ümid ölür. Ümid öləndən sonra isə insanın intihar halı olur. Biz bunun üçün çalışmalıyıq ki, əhalidə sabaha ümid hissini oyadaq. Bu, sosial sistemin qanunauyğunluğudur. Yəni ən mühüm təsir edəcək bir şey sabaha ümiddir. İntihar səbəblərini araşdıran komissiya yaranmasa və həmin komissiyada mütəxəssislər yer almalıdır. Onlar ciddi şəkildə fəaliyyət proqramı hazırlamalıdır. Kimə deyirsən ki, problemləri həll etmək üçün elmi təminata ehtiyac var, qulaq ardına vurur. Elmi təminatsız mürəkkəb sistemdə heç nə yoxdur. Çünki indiki mühitin xüsusiyyətini nəzərə almadan kompleks tədbirlər planı hazırlanmasa və kompleks şəkildə həyata keçirilməsə, bu prosesin qarşısını almaq mümkün deyil. Heç kimin tövsiyəsi və göstərişi ilə bu, həll olunan məsələ deyil. Bu, elmdə yüzdə yüz əsaslanmış bir məsələdir. Mühitdə bir anomaliya hadisəsi baş verirsə, o mühitin xüsusiyyətlərini dərindən nəzərə alıb orada elmi əsaslarla fəaliyyət proqramı hazırlamaq lazımdır. Əgər intihar hallarının qarşısının alınmasını istəyiriksə, fəaliyyət proqramı hazırlanmalıdır. Biz konkret əməli iş görməliyik ki, əhalidə sabaha inam artsın. Statistika çoxalıbsa, deməli, müəyyən təbəqələrin arasında ümidsizlik çoxalıb. Bunun qarşısını almalıyıq. Bu da fəaliyyət proqramı ilə mümkündür".

❑ **Günel MANAFLI**

# Böhran toylardakı israfçılığı aradan qaldıra biləcəkmi...

## Ölkəmizdə toylara çəkilən xərc orta aylıq maaşın 9,7 mislinə bərabərdir

**Xeyli müddətdir ki, ölkədə toy böhranı yaşanmaqdadır. Araşdırma zamanı məlum olub ki, əvvəllər bir ay ərzində ən azı 20 toy sifarişi alan şadlıq sarayları indi cəmi 8-10 sifariş ala bilir. Nəticədə şadlıq evlərində çoxlu sayda işçi, o cümlədən hətta bir çox tanınmış musiqiçilər ixtisara salınıb. Lakin iş bununla da bitmir, bəzi şadlıq evlərinin rəhbərliyi yaranmış bahaçılıqla ayaqlaşmaq üçün menyuların da tərkibində dəyişiklik etməyə, yeməklərin sayını azaltmağa başlayıb.**



Halbuki bundan əvvəl Azərbaycan toylarında xeyli israfçılığa yol verilirdi. Statistik məlumata görə, ölkəmiz toylara çəkilən xərclər üzrə liderlər sırasındadır. Hətta məlum olub ki, Azərbaycanda toylara çəkilən xərclər orta hesabla zəngin ərəblərin toy xərclərindən çoxdur. Ölkəmizdə toylara çəkilən xərc orta aylıq maaşın 9,7 mislinə bərabərdir.

Maraqlıdır, böhran toylarımızda baş verən israfçılığın aradan qaldırılmasına təsir edəcəkmi? Ekspertlər qeyd edir ki, əgər israfçılığa son qoyularsa, toy sahibləri ağır toy xərcindən xilas olar, beləliklə, toy sifarişlərinin sayı da artmağa başlayar.

**İqtisadçı Qadir İbrahimli isə "Yeni Müsavat"a danışaraq məsələyə bu cür şərh bildirdi:** "Məsələyə iqtisadi nöqteyi-nəzərdən yanaşsaq, toyların indiki formatı qətiyyən toy sahiblərinin marağına uyğun deyil. Çünki toylarda toy sahiblərinə məcburi menyu təqdim olunur, həmin menyular şadlıq evlərinin rəhbərləri tərəfindən diktə edilir. Toy sahibləri də diktə edilən menyu ilə razılaşmalı olurlar. Yəni toyun maliyyə dəyəri şadlıq evlərinin rəhbərləri tərəfindən müəyyən edilir. Bu baxımdan, toyların formatı toy sahiblərinin deyil, şadlıq evlərinin rəhbərlərinin maraqlarına uyğun tənzimlənir. Lakin hazırkı yaşanan proseslər təbii ki, bu formatı dəyişəcək və bu, reallıqdır. Çünki əhalinin gəlirlərinin azalması ənənəvi formatı dağıdır. Hesab edirəm ki, ölkədə yaşanan böhran yaxın bir neçə il də davam edəcəksə əhalinin gəlirlərinin daha da azalması baş verəcək və insanlar bu halda daha sadə toy məclisləri qurmağa çalışacaqlar. Bu da şadlıq evlərinin sahiblərini menyu formatında dəyişiklik etmək məcburiyyətində qoyacaq".

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 27 (6641) 7 fevral 2017*




## Evə oğurluğa girdi, pəncərədə ilişib qaldı

**Böyük Britaniyada bir oğru qarət etdiyi evin pəncərəsinə ilişib qalıb. Bu barədə "BBC News" xəbər verir. İnsident Böyük Mançester qraflığındakı Redkliff şəhərində baş verib. Mağazadan qayıdan yaşlı qadın fərq edib ki, onun ikinci mərtəbədə yerləşən mənzilindəki ayaqyolunun pəncərəsi açıqdır və ordan tanımadığı bir kişi sallanır. Hadisə yerinə çağırılan polislər görüblər ki, hündürlüyü 4.5 metr olan balkondan köməksiz bir oğru sallanır: "Biz xeyli güldük. Amma evin sahibəsi bu olay qarşısında şok olmuşdu". Bunu jurnalistlərə açıqlamasında serjant Riçard Qarlend bildirib.**

Yanğınsöndürənlərə kişini pəncərədən düşürüb, asayiş keşikçilərinə təhvil vermək üçün 20 dəqiqə bəs edib. Yerə düşəndə 47 yaşlı Şon Kroşou etiraf edib ki, sözügedən mənzilə qarət məqsədilə daxil olmuşdu. Məhkəmə onu 2 il 5 ay müddətinə həbs cəzasına məhkum edib. Hadisə Rekliff polisinin rəsmi tvitter səhifəsində sözügedən fotonu paylaşmasından sonra mətbuatda geniş səs-küy yaradıb.

## Bu toyuqların biri 2500 dollardır

**İndoneziyada dimdiyindən daxili orqanlarına qədər hər yeri qara olan "Ayam Cemani" cinsi toyuqlar böyük maraq görür. Bu diqqətlə yanaşı, qiymətləri də hər keçən gün artmağa davam edir. Genetik bir mutasiya ucbatından bədənindəki tüklərdən, daxili orqanlarına qədər qapqara rəngdə olan toyuqların təkcə yumurta və qanları normal toyuqlarla eyni rəngdədir. Onların ecazkar bir görünüşləri olduğu deyilir. Günəş işığının altında ikən qapqara türklərinin arasında yaşıl işıltılar gözə çarpır. Bu nadir cinsin toyuqları 2 kilo, xoruzları isə 2.5-3 kilo arasındadır. Bir zamanlar ABŞ-da onların bir ədədi 2500 dollara satılırdı.**



Varlılar tərəfindən saxlanan, bəslənən bu qara kömür rəngdə olan toyuqların öz sahibinə daha çox sərvət və güc gətirdiyi, bəzənsə şans əlaməti olduğu deyilir.

## Bu bara xəz dəri geyinənlər girə bilməz



**İtaliyanın cənubundakı Monza şəhərində bir barın qapısına "xəz dəri geyinənlər girə bilməz" elanının asılması ciddi dartışma yaradıb. Şəhərin mərkəzində yerləşən Arengo Barın qapısına asdığı ilk afişa sosial mediada sürətlə yayılıb. Afişalardan birində bir it şəkli və yanında da "Mən girə bilərəm" yazısı yazılıb. Digər afişada isə üzərində qırmızı hərflərlə yazılmış bir xəz dəri rəsmi və üzərində "Mən girə bilmərəm. Bu barda heyvanlara hörmət göstərilir" yazısı yer alıb. Sosial mediada müzakirələrə yol açan bu elan dəstək qədər etiraza da səbəb olub. Sosial media istifadəçilərinin çoxu bar sahibinə "əlasınız" deyərkən, bir çoxları da bu qadağanın ayrı-seçkilik təşkil etdiyini və qanundan kənar olduğunu deyib. Bəzi istifadəçilər isə "fanatiklikdə" ittiham etdikləri bar sahiblərinə "o zaman dəri pulqabı və kəmərdən istifadə edənləri də içəri qoymayın" deyiblər.**

Yerli qəzetlərdən birinin əməkdaşı isə Arengo barda yaşanan bu mənzərəni belə təsvir edib: "Xəz dəri geyinən yaşlı bir qadın içəri girir. Amma sonra əlini qaldırıb, xəz dərisinin saxta olduğunu deyir. Masaya oturanda isə əslində xəz dəri kürkünün həqiqi olduğunu deyir. Bu kiçik yalanı niyə deməsinin səbəblərinə gəlincə, aşağıdakıları deyib: "Məncə, hər kəs nə istəyirsə, onu da etməlidir. Buranın səhər yeməyi gözəldir, məni bir afişa dayandıra bilməz. Zatən əslində bu iş tamamən reklam kampaniyasıdır".

Xəbərin yayılması və internet vasitəsilə müzakirələrin artmasından sonra bar sahibi Ancela Sorgente mətbuata açıqlama verib ki, məqsədləri ayrı-seçkilik və ya reklam etmək yox, əksinə, heyvanlara hörmət mesajı vermək olub. Sorgente deyib ki, müştəri itirməkdən qorxmur: "Mənim üçün vacib olan hər kəsə qarşı sayğılı olmanı təmin etməkdir. Bura heyvanlar da daxildir".



## Evdə bəslədiyi quzunu sosial mediada paylaşdı

**Manisada heyvansevər bir cütlük anası ölən bir quzuya evdə baxmağa başlayıb. Əmziklə bəslənən, altına pampers qoyulan quzunun şəkilləri sosial şəbəkədə paylaşılınca böyük marağa səbəb olub. Quzu hətta evin içində balaca körpə geyimləri də geyinir. Quzunu evdə salxayan cütlüyün uşaqları da altına pampers bağlanan, oyuncaq dovşan ilə oynayıb, evdə gəzən quzunun şəkillərini çəkib sosial media vasitəsilə paylaşırlar. Evdə saxlanan quzunun şəkli bir çox insanın diqqətini çəkib. Heyvansevər cütlük əmzikli butulka ilə bəslədikləri quzuya "Xallı" adını veriblər.**




**QOÇ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**ƏKİZLƏR** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Ən azından bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran yarım ay ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**OĞLAQ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**BALIQLAR** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yaponiyada yeni müalicə üsulu - yaşlı insanları bələyə bürüyüb, sağaldırlar



**Yaponiyada yetişkin insanları bələyə bürüyüb, sonra müalicə etmək - otonamaki terapiyası getdikcə yayılmaqdadır. Bu üsulla bel və kürək hissəsindəki problemləri azaldırlar. Müalicəyə qatılanların ağ bir tənziflə qundağa bürünməsi əsas şərtdir. Otonamakidən istifadə edənlər bel tutulmaları ilə düzgün duruş məsələsində xeyli məsafə qət edirlər. Bu faydalı müalicə üsulu sürətlə yayılır.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100